www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 22-24 fevral 2025-ci il Şənbə № 34 (8644) Qiyməti 60 qəpik

**Xəbər**

## Kərə yağının qiyməti "əl yandırır" - kilosu 34 manata...

yazısı səh.10-da

# "907-Cİ DÜZƏLİŞ" LƏĞV EDİLİR, SONRA..."

ABŞ və İsrailin Azərbaycandan faydalanması üçün bədnam sanksiya aradan qaldırıla bilərmi?




yazısı səh.9-da

## "7 oğuldan biri" çıxdı - neçə icra başçısı həbsdə qalıb?

Kürdəmirin korrupsiyaya görə məhkum edilmiş sabiq icra başçısının cəza müddəti başa çatıb - digərləri isə hələ uzun illər...

yazısı səh.3-də

**Gündəm**

### Bakı qarın əsarətində - dövlət qurumları hərəkətə keçdi



Yollardakı buzlaşma xeyli çətinlik yaratdı

yazısı səh.4-də

### Moskva Bəyannaməsindən 3 il ötdü - Gəldiyimiz nöqtə

yazısı səh.6-da

### "Bakı Vaşinqtonla asan dil tapacaq..." - Kritik gözlənti

yazısı səh.5-də

### ABŞ-Rusiya barışığı İrəvana şans pəncərəsi açır? - Şərh

yazısı səh.7-də

### Bəxtiyar Vahabzadənin 100 illiyi qeyd ediləcək

yazısı səh.2-də

### Diqqət! İrandan gələn bu məhsullar təhlükəlidir

yazısı səh.13-də

### Avropa Trampa qarşı ordu hazırlığında

yazısı səh.11-də

### Azərbaycanda qadınların kişiləri döyməsinin səbəbləri

yazısı səh.14-də

### Futbolumuzda mühüm dönüş - Bu ildən...

yazısı səh.15-də

### Rusiyanın hakimiyyət dairələri panikada

yazısı səh.11-də

### Səmamızda bu təyyarələr məhv ediləcək - yeni qayda

yazısı səh.13-də



Elxan Şahinoğlu

*Politoloq:*

**"İrəvanın 10 noyabr sənədindən imtinası o anlama gəlmir ki..."**

yazısı səh.7-də



Emin Əmirullayev

**Nazirin "adlara yenidən baxmalıyıq" təklifinə reaksiya**

yazısı səh.12-də



Arzu Nağıyev

*Deputat:*

**"Paşinyan birbaşa deməsə də, bu, Bakının tələbidir"**

yazısı səh.8-də

# Baş nazirdən pensiya ilə bağlı mühüm qərar

Əmək pensiyalarının təyin edilməsi, hesablanması, yenidən hesablanması, bir növdən başqa növə keçirilməsi və ödənilməsi qaydasında dəyişiklik edilib. Bu barədə Baş nazir Əli Əsədov qərar imzalayıb. Dəyişikliklə xüsusi rütbəli şəxslərin ailə üzvlərinə, eləcə də daha yüksək məbləğdə hesablanmış digər növ əmək pensiyasına hüququ olduqda əmək pensiyaçısına müvafiq əmək pensiyasının təyin edilməsi avtomatlaşdırılmış qaydada onlar tərəfindən müraciət edilmədən dövlət orqanları tərəfindən təqdim edilən məlumatlar əsasında aparılacaq.





## Prezident Hulusi Akarı qəbul edib

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 21-də Türkiyə Böyük Millət Məclisinin deputatı, parlamentin Milli müdafiə komissiyasının sədri, Türkiyə Respublikasının sabiq milli müdafiə naziri Hulusi Akarı qəbul edib. Musavat.com xəbər verir ki, söhbət zamanı iki ölkə arasında qardaşlıq, dostluq və strateji müttəfiqlik münasibətlərinin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulanıb, parlamentlərarası əməkdaşlığın daha da genişləndirilməsi məmnunluqla qeyd olunub. Hulusi Akar dövlət başçısına xatirə hədiyyəsi təqdim edib.




## Bəxtiyar Vahabzadənin 100 illiyi qeyd ediləcək

Bəxtiyar Vahabzadənin 100 illik yubileyi qeyd ediləcək. Musavat.com xəbər verir ki, Prezident İlham Əliyev bununla bağlı Sərəncam imzalayıb. 2025-ci ilin avqust ayında Azərbaycan ədəbiyyatının görkəmli nümayəndəsi, Xalq şairi, dramaturq, ədəbiyyatşünas, pedaqoq və ictimai xadim, SSRİ və Azərbaycan Respublikasının Dövlət mükafatları laureatı, akademik Bəxtiyar Mahmud oğlu Vahabzadənin anadan olmasının 100 ili tamam olur. Bəxtiyar Vahabzadə mübariz şəxsiyyəti və çoxşaxəli fəaliyyəti ilə XX əsrin ikinci yarısından etibarən Azərbaycan bədii-ictimai fikir tarixinə parlaq səhifələr yazmış qüdrətli simalardandır. Onun Vətənə, millətə və doğma ana dilinə sonsuz məhəbbət ifadə edən, dərin poetik-fəlsəfi düşüncələrlə zəngin irsi daim mədəni-mənəvi dəyərlərə ehtiram, milli azadlıq ideallarına bağlılıq və istiqlal məfkurəsinə sədaqət hissi aşılayıb. Sənətkar ədəbi və elmi yaradıcılığını uzun illər pedaqoji fəaliyyəti ilə uğurla əlaqələndirərək, bir neçə nəslin milli təfəkkürünün formalaşmasında müstəsna rol oynayıb. Bəxtiyar Vahabzadə ictimai xadim kimi xalqın taleyüklü məsələlərinə münasibətdə həmişə əsl ziyalı mövqeyi nümayiş etdirib.

## Məhkəmə Nurlan Libre ilə bağlı qərar verdi

Jurnalist Nurlan Libre (Qəhrəmanlı) həbs olunub. Musavat.com xəbər verir ki, Xətai Rayon Məhkəməsində istintaq orqanının təqdimatı üzrə qərar qəbul olunub. Məhkəmə təqdimatı təmin edib. Onun barəsində 1 ay 17 gün müddətinə həbs qətimkan tədbiri seçilib. Qeyd edək ki, Nurlan Libre "Meydan TV" ilə əlaqəli cinayət işinə görə saxlanılıb.

## "Natiq Əliyev" tankeri yük gəmisi ilə toqquşdu

Qara dənizdə tanker və quru yük gəmisi toqquşub. "Natiq Əliyev" tankeri və "Beqoniya" quru yük gəmisi Novorossiyk limanında fırtına zamanı toqquşub. Hadisə nəticəsində "Natiq Əliyev" gəmisinin lövbər zənciri qırılıb. Onların köməyinə yedək gəmisi göndərilib. Ölən və yaralananlar olmayıb. Gəmilərə ciddi ziyan dəyməyib.

## Təcridxanaya telefon keçirmək istədi

Ədliyyə Nazirliyinin Penitensiar xidmətinin əməliyyat aparatının tədbirləri nəticəsində Bakı istintaq təcridxanasına mobil telefonların keçirilməsinin qarşısı alınıb. Penitensiar xidmətindən verilən məlumata görə, həbs olunmuş şəxs Əbdüləli Yadigar oğlu Quliyevə nişanlısı tərəfindən gətirilmiş sovqata baxış keçirilən zaman qazanın içərisində xüsusi üsulla gizlədilmiş 2 ədəd işlək vəziyyətdə olan "Samsung" markalı mobil telefon aparatı, 2 ədəd elektrik qidalandırıcısı və 2 ədəd qulaqlıq aşkar olunub. Faktla bağlı araşdırma aparılır.

## Azərbaycanda yeni agentlik yaradıldı

Prezident İlham Əliyev Mülki aviasiya sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bəzi tədbirlər haqqında Fərman imzalayıb. Musavat.com xəbər verir ki, Fərmana əsasən, Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyinin və Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyinin tabeliyində "Mülki Aviasiyada Uçuşların Təhlükəsizliyi üzrə Dövlət Müfəttişliyi" publik hüquqi şəxsin əsasında Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin tabeliyində "Dövlət Mülki Aviasiya Agentliyi" publik hüquqi şəxs yaradılıb.

## DİN: Polis gücləndirilmiş rejimdə çalışır



Daxili İşlər Nazirliyinin əməkdaşları hava şəraiti ilə əlaqədar gücləndirilmiş rejimdə xidmət aparır, müraciətlərə çevik reaksiya verir. DİN-in Mətbuat Xidmətindən "Yeni Müsavat"a verilən məlumata görə, paytaxtla yanaşı ölkəboyu şəhər və rayonlarda, həmçinin magistral yollarda gücləndirilmiş rejimdə xidmət təşkil olunub. Polis əməkdaşları tərəfindən işğaldan azad olunmuş ərazilərdə də təhlükəsizlik məqsədilə zəruri tədbirlər davam etdirilir.

Hərəkətin intensiv olduğu küçə və prospektlərdə, piyada keçidlərinə əlavə polis naryadları cəlb edilib. Gecə saatlarından təşkil edilən fasiləsiz xidmət zamanı digər dövlət orqanları ilə birgə yollar, nişanlar qardan və buzdan təmizlənir, yerlərə qum və duz səpilir. Sürücü və piyadaların mənzil başına təhlükəsiz şəraitdə çatması təmin edilir. Mövcud hava şəraiti ilə bağlı dünən axşam saatlarından 102 Zəng Mərkəzinə daxil olan 417 çağırış üzrə dağ və meşə, həmçinin respublika əhəmiyyətli avtomobil yollarında vətəndaşlara zəruri köməkliklər göstərilməklə polis əməkdaşları tərəfindən müraciətlərə çevik reaksiyalar verilib. Bu istiqamətdə işlər fasiləsiz olaraq davam etdirilir.

## Bakıda avtobus piyadanı vurub öldürdü

Bakıda avtobus piyadanı vuraraq öldürüb. Daxili İşlər Nazirliyinin Mətbuat Xidmətinin əməkdaşı polis leytenantı Elbrus İbrahimov musavat.com-a bildirib ki, fevralın 19-da saat 22:00 radələrində Suraxanı rayonu Bülbülə qəsəbəsi ərazisində 1961-ci il təvəllüdlü İlqar Əliyev idarə etdiyi "Daevoo" markalı marşrut avtobusu ilə yolu keçən 1973-cü il təvəllüdlü Z.Xibabayevi vurub. Piyada hadisə yerində ölüb. Faktla bağlı cinayət işi başlanılıb. Araşdırma aparılır.

## Göyçayda 75 yaşlı qadın sobada yandı

Göyçayda qadın yanıq xəsarətləri alıb. Hadisə Çayarxı kəndində baş verib. Kənd sakini 75 yaşlı Yusifova Xalidə Əlibala qızının paltarı ehtiyatsızlıqdan sobaya yapışıb. Nəticədə qadın yanıq xəsarətləri alaraq, rayon Mərkəzi Xəstəxanasına yerləşdirilib.



## Bu gün də Bakıda qar yağacaq

Bakıda və Abşeron yarımadasında bəzi yerlərdə arabir qar yağacağı gözlənilir. Bu barədə musavat.com-a Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib. Bildirilib ki, gündüz yağıntıda fasilə olacaq. Arabir güclənən şimal-qərb küləyi günün ikinci yarısında mülayimləşəcək. Havanın temperaturu gecə 2-5° şaxta, gündüz 2° şaxtadan 1°-dək isti olacaq. Gecə və səhər yollar buz bağlayacaq. Atmosfer təzyiqi 769 mm civə sütunu təşkil edəcək. Nisbi rütubət gecə və gündüz 70-75 % olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağıntılı olacağı, qar yağacağı gözlənilir. Ayrı-ayrı yerlərdə intensiv olacağı ehtimalı var. Bəzi yerlərdə arabir duman. Qərb küləyi bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 2-6° şaxta, gündüz 2° şaxtadan 2°-dək isti, dağlarda gecə 8-13° şaxta, yüksək dağlıq ərazilərdə 16-21° şaxta, gündüz 5-8° şaxta olacaq. Bəzi yerlərdə yolların buz bağlama ehtimalı var.

## Dövlətə xəyanətdə təqsirləndirilən şəxsin məhkəməsi başladı

Dövlətə xəyanətdə təqsirləndirilən Bəhruz Səmədovun cinayət işi üzrə məhkəmə prosesi başlayıb. "Yeni Müsavat" xəbər verir ki, dünən Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Elnur Nuriyevin sədrliyi ilə keçirilən prosesdə təqsirləndirilən şəxsin anket məlumatları dəqiqləşdirilib.

Təqsirləndirilən şəxsin vəkili Zibeydə Sadıqova Bəhruz Səmədov barəsində həbs qətimkan tədbirinin ev dustaqlığı ilə əvəzlənməsini xahiş edib. Məhkəmə müşavirədən sonra vəkilin vəsatətini təmin etməyib və cinayət işinin məhkəmə baxışına verilməsi barədə qərar çıxarıb. Məhkəmənin baxış iclası martın 7-nə təyin olunub. O da bildirilib ki, iş üzrə növbəti proseslər qapalı keçiriləcək. Qeyd edək ki, Bəhruz Səmədov ötən ilin avqust ayında Dövlət Təhlükəsizliyi Xidmətinin (DTX) keçirdiyi əməliyyat-istintaq tədbirləri zamanı saxlanılıb. DTX tərəfindən ona Cinayət Məcəlləsinin 274-cü (dövlətə xəyanət) maddəsi ilə ittiham elan edilib.

YENİ MÜSAVAT
N 34 (8644) 22 fevral 2025

**Kürdəmirin korrupsiya ittihamları ilə məhkum edilmiş icra başçısı Ceyhun Cəfərovun cəzaçəkmə müddəti başa çatıb. Məlumata görə, son bir ilini məntəqə tipli cəzaçəkmə müəssisəsində keçirən eks-icra başçısı artıq azaddır. Qeyd edək ki, 2020-ci ilin avqustunda Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi Kürdəmirdəki qanun pozuntularına qarşı əməliyyat keçirib. Əməliyyat çərçivəsində rayonun icra başçısı və başqa vəzifəlilər cinayət məsuliyyətinə cəlb edilib. Ceyhun Cəfərov ilk növbədə Lənkəran Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 8 il 6 ay azadlıqdan məhrum edilmişdi.**




# "7 oğuldan biri" çıxdı - neçə icra başçısı həbsdə qalıb?

## Kürdəmirin korrupsiya ittihamları ilə məhkum edilmiş sabiq icra başçısı Ceyhun Cəfərovun cəza müddəti başa çatıb - digərləri isə hələ uzun illər...

Dövlətə vurulan ziyanı ödəməsi nəzərə alınaraq, Şirvan Apelyasiya Məhkəməsi cəza müddətini 6 ilə endirib, daha sonra Ali Məhkəmə qərarı ilə bu müddət 4 il 6 aya qədər azaldılıb. Cəza müddətində Ceyhun Cəfərov 2 ilini təcridxanada, 1 il 2 ayını ümumi rejimli cəza müəssisəsində, qalan 1 il 2 ayını isə məntəqə tipli cəzaçəkmə müəssisəsində keçirib. Məhkum son aylarda müdriyyətin icazəsi ilə müəyyən vaxtlarda cəzaçəkmə müəssisəsindən kənara çıxa bilirdi.

İcra başçılarının həbs dalğası 2019-cu ilin dekabrından başlayıb. Dövlət Təhlükəsizliyi Xidmətinin Ağstafada keçirdiyi əməliyyatla icra başçısı Nizaməddin Quliyev və birinci müavini Ramiz Tatarov saxlanılıb. Gəncə Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə 9 il həbsə məhkum edilən sabiq icra başçısı koronavirus səbəbindən vəfat edib.

Nizaməddin Quliyevlə eyni vaxtda Yevlaxın eks-icra başçısı Qoca Səmədov da saxlanılıb. Sabiq başçı barəsində 7 il 3 ay müddətinə həbs qərarı verilib. Şəki Apelyasiya Məhkəməsinin qərarına əsasən, Qoca Səmədovun cəzası 6 ilə endirilib. Külli miqdarda mənimsəmə, rüşvət alma, vəzifə səlahiyyətlərindən sui-istifadə etmə və vəzifə saxtakarlığı kimi əməllərdə təqsirli bilinən Qoca Səmədovun özünə və yaxınlarına məxsus xeyli sayda ev, torpaq sahələri, obyektlər müsadirə olunub.

Əməliyyatın davamı kimi 2020-ci ilin fevralında Dövlət Təhlükəsizliyi Xidməti Neftçalaya üz tutub. İcra başçısı İsmayıl Vəliyevlə birgə birinci müavini Vurğun Əkbərov və bir neçə şöbə müdiri də dəmir barmaqlıqlar arxasına yollanıb. Ötən ilin oktyabrında İsmayıl Vəliyevin cinayət işi üzrə də məhkəmə prosesi başa çatıb. Hökmə əsasən, sabiq başçı 10 il müddətinə azadlıqdan məhrum edilib. Onun da xeyli əmlakı müsadirə olunub. İsmayıl Vəliyevin cəzası cəmi 4 ay azaldılıb.

2020-ci il aprelin 29-da isə rüşvətxor məmurların kabusuna çevrilən əməliyyatçılar Biləsuvara baş çəkiblər. İcra başçısı Mahir Quliyev kabinetindəcə saxlanılıb. Bu ilin martında isə Lənkəran Ağır Cinayətlər Məhkəməsinin hökmü ilə Mahir Quliyev 11 il müddətinə azadlıqdan məhrum edilib. Bundan başqa, məhkəmə onun Bakıdakı 1 milyon manatlıq 2 mənzilini və 62 min manatlıq "Audi" markalı avtomobilini müsadirə edib. Həmçinin Biləsuvar Rayon İcra Hakimiyyətinə dəymiş 3 milyon 206 min manat və DOST mərkəzinə ödəniləcək 125 min manatlıq mülki iddianı təmin edib.

Həbsdə olanlardan daha biri 2020-ci ilin dekabrında Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən keçirilən xüsusi əməliyyatla saxlanılan Cəlilabad Rayon İcra Hakimiyyətinin sabiq başçısı Namiq Zeynalovdur. Məhkəmənin verdiyi hökmə əsasən, o, 12 il müddətinə azadlıqdan məhrum edilib. Namiq Zeynalovun da bazar dəyəri 2 milyona yaxın qiymətləndirilən əmlakı müsadirə olunub.

Həbs həyatı yaşayanlardan biri də Şəmkirin sabiq icra başçısı Alimpaşa Məmmədovdur. Alimpaşa Məmmədov 2021-ci ilin aprelində Dövlət Təhlükəsizliyi Xidməti tərəfindən kompleks əməliyyat-istintaq tədbirləri nəticəsində həbs olunub. Gəncə Ağır Cinayətlər Məhkəməsinin hökmünə əsasən, sabiq icra başçısı 11 il 6 ay müddətinə azadlıqdan məhrum edilib.

Məhkəmənin hökmü ilə sabiq icra başçısının satılmış və dəyəri dövlət büdcəsinə vurulmuş ziyana yönəldilməsi ilə əlaqədar məhkəmə depozitinə köçürüldüyündən iki əmlakı üzərindən həbs qərarı götürülüb.

❑ **E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

# Siyavuş Novruzovun qardaşı oğluna vəzifə verildi



**Fövqəladə Hallar Nazirliyinin (FHN) Bakı Regional Mərkəzinə rəis müavini təyin olunub.**

"Qaynarinfo" xəbər verir ki, bununla bağlı fövqəladə hallar naziri general-polkovnik Kəmaləddin Heydərov əmr imzalayıb. Nazirin müvafiq əmri ilə Nəcəf Novruzov Bakı Regional Mərkəzinə rəis müavini təyin edilib.

Qeyd edək ki, Nəcəf Novruzov bundan əvvəl Gənclər və İdman Nazirliyinin Quba-Xaçmaz Regional Gənclər və İdman İdarəsinin rəisi vəzifəsində çalışıb. Bir neçə ay əvvəl vəzifəsindən azad olunub.

Xatırladaq ki, Nəcəf Novruzov Milli Məclisin deputatı Siyavuş Novruzovun qardaşı oğludur.

# General saytlara hücumdan danışdı




**"Dövlət qurumlarına qarşı həyata keçirilən kiberhücumların qarşısı tam olaraq alınır. Hücumlar əsasən məlumatları kənarda yerləşdirilən media qurumlarına qarşı olub".**

Bunu jurnalistlərə açıqlamasında Xüsusi Rabitə və İnformasiya Təhlükəsizliyi Dövlət Xidmətinin (XRİTDX) rəis müavini general-mayor Allahverən İsmayılov deyib.

O bildirib ki, media qurumları bu məsələlərdə diqqətli olmalıdır. XRİTDX və digər aidiyyəti dövlət qurumları maarifləndirmə işlərinin aparılması, görüşlərin keçirilməsində əməkdaşlığı gücləndirməlidir: "Aparıb göstərək, nə etmək lazımdır, hansı tədbirlər görsək belə halların qarşısını tez ala bilərik. Bəzən bizə elə gəlir ki, açıq mənbələrdə elə də məlumat yoxdur. Amma xüsusi xidmət orqanları açıq mənbələrdə apardığı təhlil məlumatlarından külli miqdarda əməliyyat məlumatları əldə edir. Kiberhücumlar göstərir ki, açıq mənbələrdə, media ilə bağlı məsələlərə sadə yanaşma olmamalı, təhlükəsizlik prizmasından baxılmalıdır. Hər kəs də təhlükəsizliyinin təmin edilməsi baxımından öz imkanlarından maksimum istifadə etməlidir".

# Vəzifəli şəxslər barəsində cinayət işi başlandı



**Əmək hüquqlarının pozulması halları barədə vətəndaşlardan daxil olmuş müraciətlər əsasında Baş Prokurorluğun Cinayət təqibindən kənar icraatlar idarəsində araşdırma aparılıb.**

Baş Prokurorluğun Mətbuat xidmətindən bildirilib ki, araşdırma zamanı "Vabiss" MMC-nin vəzifəli şəxsi tərəfindən əmək müqaviləsi olmadan xeyli sayda işçinin işə cəlb edilməklə, əmək haqlarının, həmçinin əmək müqaviləsi bağlanacağı təqdirdə ödəməli olduğu vergilər, işsizlikdən sığorta, icbari tibbi sığorta və məcburi dövlət sosial sığorta haqlarının ödənilməməsi, "HRH Construction2024" MMC-nin vəzifəli şəxsi tərəfindən işçilərin əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi müəyyən edilib.

Bundan başqa "İnşaat Konstruksiyaları" MMC, "LABSTYLE" MMC və "Koray Kılıç Mekanik İnşaat" MMC-nin vəzifəli şəxsləri tərəfindən işçilərinə əmək haqqı və son haqq-hesabın ödənilməməsi nəticəsində əmək haqqının hesablanmasında və ödənilməsində qanun pozuntularına yol verilməsi müəyyən olunub.

Qeyd edilən faktlar üzrə Cinayət Məcəlləsinin 162-1.1 (əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən xeyli sayda işçilərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi) və 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə cinayət işi başlanaraq istintaqın aparılması üçün Nəsimi rayon prokurorluğuna göndərilib, həmçinin İnzibati Xətalar Məcəlləsinin 192.1 (əmək müqaviləsi (kontraktı) hüquqi qüvvəyə minmədən işəgötürən tərəfindən fiziki şəxslərin hər hansı işlərin (xidmətlərin) yerinə yetirilməsinə cəlb edilməsi) və 192.4-cü (işçinin əmək haqqının ödənilməsində qanun pozuntularına yol verilməsi) maddələri ilə inzibati xəta haqqında iş üzrə icraatlar başlanaraq baxılması üçün aidiyyəti üzrə rayon məhkəməsinə və Dövlət Əmək Müfəttişliyi Xidmətinə göndərilib.



# Astarada faciə - iki uşaq yandı

**Astara rayonu Kijəbə qəsəbə ərazisində ölümlə nəticələnən yanğın hadisəsi olub. Fərdi yaşayış evində baş verən yanğın zamanı iki azyaşlı ölüb.**

Modern.az hadisə barədə bir sıra məlumatlar əldə edib.

Belə ki, hadisə kənd sakinlərinə məxsus 2 mərtəbəli evdə olub. Yanğın nəticəsində həyatını itirən 2 azyaşlı məktəbəhazırlıq qruplarının uşaqları olub.

Məlumata görə, yanğın odun sobasının alışması nəticəsində baş verib.

Qeyd edilib ki, azyaşlıların valideynləri kənd təsərrüfatları ilə məşğul olan kənd sakinləridir.

Meyitlər daxili və xarici müayinə olunması üçün aidiyyəti üzrə təhvil verilib.

YENİ MÜSAVAT
N 34 (8644) 22 fevral 2025

## 55 nəfər xəstəxanalıq oldu



**Səhiyyə Nazirliyi Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutuna qarlı hava şəraiti ilə əlaqəli olaraq 55 nəfər müraciət edib. Bu barədə nazirlikdən bildirilib. Məlumata görə, xəsarət alan şəxslərdə əsasən sınıqlar, bilək və said nahiyyəsində deformasiya, kəskin ağrı və şişkinlik müşahidə olunub, iki nəfərə cərrahi müalicə tətbiq olunub.**

TƏBİB-dən verilən məlumata görə, onlardan 23 nəfər müxtəlif travmalarla müvafiq tibb müəssisələrinə hospitalizasiya olunub, 1 nəfər isə hospitalizasiyadan imtina edib.

Səhiyyə Nazirliyi Elmi-Tədqiqat Travmatologiya və Ortopediya İnstitutuna isə qarlı hava şəraiti ilə əlaqəli olaraq 15 nəfər müraciət edib.

Qeyd olunub ki, xəsarət alan şəxslərdə əsasən sınıqlar, bilək və said nahiyyəsində deformasiya, kəskin ağrı və şişkinlik müşahidə olunub, iki nəfərə cərrahi müalicə tətbiq olunub.



# Bakı qarın əsarətində - dövlət qurumları hərəkətə keçdi

## Yollarda buzlaşma bir sıra çətinliklər yaratdı, piyadavurmaya, qəzalara səbəb oldu

**İki gündür respublika ərazisinə qar yağır. Milli Hidrometeorologiya Xidmətinin məlumatına görə, ən çox qar şimal-qərb bölgəsində müşahidə olunub. Qarın hündürlüyü Zaqatalanın dağlıq ərazisi olan Əlibəydə 76, Qaxın dağ kəndi olan Sarıbaşda 52, Şəkidə 29 sm olub. Ekologiya və Təbii Sərvətlər Nazirliyinin məlumatında bildirilib ki, Bakıda və Abşeron yarımadasında isə temperatur iqlim normasından 7.5 dərəcə aşağı olub. Qar güclü şimal-qərb küləyi və çovğunla müşahidə olunub.**

Bakıda və Abşeron yarımadasında 3 dərəcə şaxta qeydə alınıb ki, bu da çoxillik iqlim normasından 7.5 dərəcə aşağıdır. Çoxillik meteoroloji məlumatlara görə, fevral ayının iqlim norması müsbət 4,5 dərəcə təşkil edir. Azərbaycanın bəzi dağlıq rayonlarında qar örtüyünün hündürlüyü 1 metrə çatır.

Baş Dövlət Yol Polisi İdarəsi hava şəraiti ilə bağlı piyadalara müraciət edib.

Bildirilib ki, hazırda ölkə ərazisində hökm sürən əlverişsiz hava şəraiti piyadalar üçün bir sıra çətinliklər yaradıb:

"Bununla yanaşı, yolların sürüşkənliyi və məhdudiyyətli görünmə səbəbindən piyadavurma hadisələrinin baş vermə ehtimalı artıb.

Lakin bəzən piyadaların qeyri-sabit hava şəraitini düzgün qiymətləndirməməsi, daha çox sürücülərin məsuliyyətinə güvənərək yolu nəzərdə tutulmayan yerlərdən keçməsi, səki olduğu halda, eləcə də qəflətən yolun hərəkət hissəsinə çıxması yol qəzalarının baş verməsinə real zəmin yaradır.

Nəzərə almaq lazımdır ki, sürüşkən yolda piyadanın anidən yola çıxması onsuzda çətinliklə hərəkət edən sürücünü kəskin tormozlamaya vadar edir ki, bu da piyadavurma, toqquşma, maneəyə vurma kimi ağır hadisələrə gətirib çıxarır.

Baş Dövlət Yol Polisi İdarəsi yol hərəkətinin ən müdafiəsiz iştirakçısı olan piyadalara müraciət edərək, bir daha onları əlverişsiz havalarda yola çıxarkən öz həyat və sağlamlıqlarına qarşı diqqətli olmağa, verilən tövsiyələrə laqeyd yanaşmamağa, hərəkəti qaydalarına istisnasız əməl etməyə çağırır".

Srağagün yağmağa başlayan qar İsmayıllı-Muğanlı əsas magistral yolunda bir sıra fəsadlara səbəb olub.

Ərazidə və İsmayıllı rayonunun Basqal kəndi ərazisində əksəriyyəti sərnişin avtobusu olmaqla, ümumilikdə 50-yə yaxın nəqliyyat vasitəsi yolda qalıb.

Dünən səhər saatlarında həmin yol təqribən üç saata yaxın bağlı qalıb, sürücülər və sərnişinlər üçün çətin anlar yaşadıb.

Əraziyə aidiyyəti qurumların texnikası və canlı qüvvəsi cəlb olunub. Hazırda yolda avtomobillərin hərəkəti qismən bərpa olunsa da, güclü qar yağmaqda davam edir.

Yolda qalan avtomobillərin ərazidən çıxarılması istiqamətində zəruri işlər görülür. (report)

Srağagün gecədən dünən saat 10:00-a qədər Respublika Təcili və Təxirəsalınmaz Tibbi Yardım Mərkəzinə əlverişsiz hava şəraiti ilə əlaqədar 24 nəfərin (14-ü qadın, 10-u kişi cinsli olmaqla) müraciəti qeydə alınıb.




Azərbaycan Yerüstü Nəqliyyat Agentliyindən (AYNA) Musavat.com-a bildirilib ki, ölkə ərazisində müşahidə olunan qeyri-sabit hava şəraiti ilə əlaqədar avtobusların hərəkətində gecikmələr ola bilər. Xəttə gündəlik saya uyğun avtobuslar buraxılıb:

"Şəxsi avtomobilləri ilə yola çıxan sürücüləri daha böyük ara məsafəsi saxlamağa, parklanma zamanı təhlükəsizlik qaydalarına ciddi əməl etməyə çağırırıq. Mənzil başına tez və təhlükəsiz çatmaq istəyən vətəndaşlarımıza ictimai nəqliyyatdan istifadə etməyi tövsiyə edirik", - məlumatda qeyd olunub.

Fevralın 21-də Heydər Əliyev Beynəlxalq Aeroportunda uçuşlar cədvələ uyğun şəkildə həyata keçirilib.

Qurumdan mətbuata verilən açıqlamada bildirilib ki, ölkə ərazisində müşahidə olunan qeyri-sabit hava şəraitinə baxmayaraq, Heydər Əliyev Beynəlxalq Aeroportunda uçuşlar cədvələ uyğun şəkildə həyata keçirilib.

Hava limanından o da bildirilib ki, uçuşların təhlükəsiz və fasiləsiz icrasını təmin etmək məqsədilə bütün zəruri tədbirlər görülməkdədir.

"Uçuş-enmə zolaqları və sürmə yolları mütəmadi olaraq xüsusi texnika vasitəsilə təmizlənir və buzlanmaya qarşı xüsusi maddələrlə emal edilir. Bundan əlavə, hava gəmilərinin buzlanmadan qorunması üçün "de-icing" (buzdan təmizləmə) prosedurları tətbiq olunur", deyə qurumun açıqlamasında qeyd olunub.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC də açıqlama yayıb:

Xəzər akvatoriyasında müşahidə olunan küləkli hava şəraiti ilə əlaqədar gəmilər lövbər dayanacaqlarına və sığınacaqlara çəkiliblər.

Dəniz Nəqliyyatı və Xəzər Dəniz Neft Donanmasına məxsus ASCO gəmiləri təhlükəsizlik məqsədilə lövbərlər dayanacaqlarına və təhlükəsiz sığınacaqlara çəkiliblər.

Bundan başqa, Azərbaycanda küləkli hava şəraiti ilə əlaqədar ictimai nəqliyyatın hərəkəti gücləndirilib, vağzal və stansiyalarda sərnişinlərin təhlükəsizliyinin təmin edilməsi üçün əlavə tədbirlər görülür, yolların qardan təmizlənməsi işləri davam etdirilir.

O ki qaldı təhsildə davamiyyətə, Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyindən verilən məlumata görə, ölkə ərazisində müşahidə edilən yağıntılı hava şəraiti ilə əlaqədar şagirdlərin davamiyyətində əvvəlki günlərlə müqayisədə ciddi azalma müşahidə edilmir və təlim-tədris prosesi fasiləsiz şəkildə davam edir.

"Müşahidə edilən qeyri-sabit hava şəraiti ilə əlaqədar olaraq, xüsusilə azyaşlı məktəblilərin valideynlərini dərsə gedən övladlarını nəzarətdə saxlamağa çağırır, təhsil müəssisələrinin rəhbərlərindən və valideynlərdən müvafiq təhlükəsizlik tədbirlərinə riayət etmələrini xahiş edirik", deyə açıqlamada qeyd olunub.

Yolların buz bağlaması hallarında Fövqəladə Hallar Nazirliyi piyadalara tövsiyələr edib.

Musavat.com xəbər verir ki, bu barədə Fövqəladə Hallar Nazirliyinin Mətbuat xidməti məlumat yayıb.

Tövsiyədə deyilir:

- ayaqqabını sürüşməyə qarşı hazırlayın - ayaqqabının dabanına metal basma, quru altlığa isə yapışqan plastır, yaxud izolyasiya lenti yapışdırın. Altlığı qum və ya sumbata kağızı ilə sürtün;

- ehtiyatla, tələsmədən, ayaqqabını yerə bütövlükdə basaraq hərəkət edin. Bu zaman ayaqlar azca zəiflədilmiş, əllər boş olmalıdır;

- yaşlı insanların rezin ucluqlu əsadan, yaxud ucları batıcı olan xüsusi çubuqdan istifadə etməsi tövsiyə olunur;

- sürüşsəniz zərbənin gücünü azaltmaq ücün oturun;

- yıxılanda özünüzü toparlayın, qollarınızı büküb diyirlənərək zədə almaqdan qorunun;

- sürüşərək zədə almısınızsa, təcili tibbi yardıma müraciət edin.

❑ Nigar HƏSƏNLİ,
"Yeni Müsavat"

## Növbəti köç Cəbrayıl şəhərinə çatıb



**Prezident İlham Əliyevin tapşırığına uyğun olaraq, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramına əsasən, yenidən qurulan Cəbrayıl şəhərinə, respublikanın müxtəlif ərazilərində yataqxana, sanatoriya və inzibati binalarda müvəqqəti məskunlaşmış ailələrdən ibarət növbəti köç karvanı Bakı şəhərinin Qaradağ rayonundan yola salınıb. Musavat.com xəbər verir ki, bu mərhələdə Cəbrayıl şəhərinə 33 ailə - 183 nəfər köçürülüb. Qeyd edək ki, hazırda Qarabağda və Şərqi Zəngəzurda, ora köçürülən keçmiş məcburi köçkünlərlə yanaşı, bu bölgədə aparılan layihələrin icrasında çalışan, həmçinin ayrı-ayrı dövlət qurumlarının yerli bölmələrində xidməti vəzifələrini yerinə yetirən, yenidən fəaliyyətə başlamış səhiyyə, təhsil, mədəniyyət, turizm, sənaye, energetika müəssisələrində işləyən, ümumilikdə, 40 minə yaxın insan yaşayır.**

MÜSAVAT
N 34 (8644) 22 fevral 2025

**"Apardıqları siyasətdə oxşar yanaşmalar səbəbindən Azərbaycan hakimiyyəti üçün Tramp administrasiyası ilə işləmək xeyli asan olacaq. Tramp konstruktivliyə və iqtisadi mənfəətə hədəflənib". Bu sözləri Rusiya Beynəlxalq Əlaqələr Şurasının proqram koordinatoru Milan Lazoviç "Moskva-Bakı"ya müsahibəsində Rusiya ilə ABŞ arasında münasibətlərin potensial yaxşılaşması və bunun Cənubi Qafqaz regionuna necə təsir göstərə biləcəyini şərh edərkən deyib.**

# "Bakı Vaşinqtonla asan dil tapacaq..." - Kritik gözlənti

## Trampın Cənubi Qafqaza diqqəti artacaq, Azərbaycan onun üçün daha cəlbedicidir

"Trampı ideoloji məsələlər maraqlandırmır. Eyni sözləri Azərbaycan prezidenti İlham Əliyev haqqında da demək olar. Hər iki lider ilk növbədə öz ölkələrinin maraqlarını həyata keçirməyə köklənmiş güclü dövlət xadimləridir. Onlar öz xarici siyasətini buna əsasən qururlar. Ona görə də onların ortaq dil tapmaqları xeyli asanlaşacaq. Bundan əlavə, Bayden dönəmində Bakı və Vaşinqton arasında gərginlik ABŞ-ın Ermənistanın fəal dəstəyi ilə bağlı idi. Üstəlik, Tramp Ermənistana da aktiv yardım göstərən ideoloji strukturu - USAİD-i ləğv etdi. Bu addım ABŞ-Azərbaycan əlaqələrində qıcıqlandırıcıların aradan qaldırılmasına kömək edəcək", - Lazoviç əlavə edib.

Rəsmi Bakının ABŞ-ın yeni prezidenti Donald Trampdan pozitiv gözləntisi qalır. Hansı ki, Prezident İlham Əliyev səviyyəsində bəyan edilib. Bu da ən əvvəl Co Bayden dönəmində Vaşinqtonun sərgilədiyi anti-Azərbaycan mövqeyindən imtina və əlaqələrin normal tərəfdaşlıq, hətta mümkün olarsa, strateji tərəfdaşlıq səviyyəsinə gətirilməsi ilə bağlıdır.

Bu gözlənti gerçəkləşəcəkmi? Trampın ətrafına yığışmış ermənipərəstlər buna imkan verəcəkmi?

"Alyans" Araşdırmalar Mərkəzinin rəhbəri Abutalıb Səmədov "Yeni Müsavat"a bildirdi ki, ABŞ-ın erməniyönlü, Ermənistanı dəstəkləyən fəaliyyəti əsasən 2023-cü ildən başlayıb: "Həmin dövrə qədər Bayden administrasiyası konstruktiv mövqe tuturdu. Hətta Vaşinqton variantının ortaya çıxması, Paşinyanın 2022-ci ilin oktyabrında Praqa sənədinə imza atması ABŞ-ın Ermənistana təzyiqi nəticəsində mümkün olmuşdu. Bütün bu fəaliyyətin yekunu olaraq 2023-cü ilin fevralında Azərbaycan prezidenti Münhendə açıq şəkildə demişdi ki, Azərbaycan danışıqları Qərb platformasında aparmaqda maraqlıdır. 2023-cü ilin əvvəlindən başlayaraq Ermənistan aktiv şəkildə antirus mövqeyi tutdu. Çünki 2022-ci ilin sonlarında Soçidə keçirilən sammitdə arzuladığını ala bilmədi. 2023-cü ildə Ermənistanın aktiv şəkildə anti-Rusiya mövqeyinə keçməsi Vaşinqtonun da baxışlarını dəyişdirdi və Bayden hökuməti aktiv şəkildə Ermənistana dəstək verməyə başladı və bunun da nəticəsində vasitəçilik imkanını itirdi, Qərb platforması fəaliyyət qabiliyyətini itirmiş oldu. Həm Avropa İttifaqı, həm də Vaşinqton oyundan kənar vəziyyətdə qaldı. Tramp administrasiyasının Cənubi Qafqaza münasibəti dəyişdirəcəyi heç kimdə şübhə doğurmur. Çünki bu administrasiyasının hər şeydən çox iqtisadi maraqlar düşündürür. Bu baxımdan təbiidir ki, Azərbaycan Tramp üçün daha cəlb edicidir. Trampın bölgəyə digər marağı təbiidir ki, sülh sazişinin imzalanması ilə bağlı ola bilər. Nə qədər vaxt elan eləsə də Ukraynada sülhə nə yüz gündə, nə də 6 ayda nail olmaq mümkünsüzdür. Bunu Tramp da yaxşı başa düşür və tələb edir ki, Zelenski prezident seçkilərinə getsin və bu vasitə ilə hakimiyyətdən uzaqlaşsın. Tramp danışıqları Zelenski olmadan davam etdirmək istəyir. Bu da ən azı ilin sonuna qədər çəkə bilər. Ancaq Tramp özünü sülhpərvər bir prezident kimi təqdim etmək istəyir və bunun üçün də əlində əlavə bir imkan var - Azərbaycan-Ermənistan sülh sazişi, demək olar ki, hazırdır. Tramp bu sazişin imzalanmasına nail olmaq üçün azca güc sərf eləsə, qısa müddətdə Ermənistanı müəyyən addımlar atmağa məcbur etmək olar. Bu səbəbdən hesab edirəm ki, yaxın vaxtlarda Trampın bölgəmizə diqqəti xeyli artacaq". Ekspert qeyd etdi ki, Azərbaycanla ABŞ arasında strateji tərəfdaşlıq münasibətlərinin qurulması mümkündür prinsip etibarilə mümkündür, ancaq bir az real görünmür: "Normal münasibətlərimizin olması təbiidir ki, mümkündür və bizim istəyimiz də bundan ibarətdir. Bakının Trampdan gözləntilərinin nə zaman doğrulacağını isə yəqin ki, yaxın aylarda bölgəmizə diqqətinin artmasının baş verməsindən söyləmək mümkün ola bilər. Hazırda isə Trampın əsas diqqəti Ukraynaya yönəlib. Orada müəyyən ilkin nəticələrə nail olmaq istəyir. Söhbət Ukraynanın təbii sərvətlərinin bir hissəsini ələ keçirməkdən, danışıqlar prosesini ölü nöqtədən tərpətməkdən gedir. Bunlara nail olduqdan və ola bilsin, atəşkəsə nail olduqdan sonra Azərbaycanın yerləşdiyi bölgəyə də diqqət arta bilər. Yüksək vəzifəyə təyin etdiyi ermənipərəst fiqurlar isə yəqin ki, Trampın Ermənistana önəm verməsini arzulaya bilərlər. Ancaq ABŞ-ın maraqları nə tələb edəcəksə o maraqlar öndə olacaq, şəxslərin maraqları deyil".

"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri Elxan Şahinoğlu isə hesab edir ki, ermənipərəst lobbisi və yeni administrasiyadakı ermənipərəst şəxslər Trampa təsir etməyə çalışacaqlar: "Donald Tramp andiçmə mərasimindən keçən qısa müddətdə elə "sürət" götürüb ki, beynəlxalq aləm Ağ Ev sahibinin hər addımından yaxşı heç nə gözləmir. Tramp və onun komanda üzvləri Ukrayna ilə bağlı faktiki Kreml sahibinin söylədiklərini təkrarlayırlar, "Krımı və Şərqi Ukrayna ərazilərini geri qaytarmaq mümkün olmayacaq", "Ukrayna NATO üzvü olmayacaq", "Zelenskinin səlahiyyət müddəti bitib" və s. Baxmayaraq ki, Tramp prezidentliyinin birinci müddətində Cənubi Qafqazda Azərbaycanla əməkdaşlığa zərər verəcək addım atmayıb, budəfəki prezidentliyinin bizim üçün necə keçəcəyi sual altındadır. Bu arada, ABŞ-dakı erməni lobbisi Tramp və onun ətrafındakılara davamlı məktublar göndərir, Azərbaycanı cəzalandırmağı tələb edirlər. Əlbəttə, bu məktublara fikir verməmək də olar, ancaq Trampın ətrafındakı bir sıra fiqurun yaxın keçmişdə erməni lobbisi, Ermənistan və Qarabağ separatçıları ilə bağlılığı narahatlığımız üçün əsas verir. Prezidentin köməkçisi Hikmət Hacıyevin qısa müddətdə İsrailə ikinci səfərini Azərbaycan-ABŞ münasibətləri aspektindən də dəyərləndirmək olar. İsrail baş naziri Netahyahu Azərbaycanla ABŞ arasındakı dialoqun formalaşmasında körpü rolunu oynaya bilər. Əsas odur ki, Vaşinqton Cənubi Qafqaz siyasətini doğrular üzərində müəyyənləşdirsin".

Politoloq dedi ki, Tramp Putinlə sövdələşməyə hazırlaşır: "Bu sövdələşmə Ukraynanın zərərinə olduğu kimi Cənubi Qafqaz üçün də təhlükələr yarada bilər. Ona görə həmin günü gözləmədən Azərbaycanla Ermənistan arasında məsələlərin qısa müddətdə həllinə ehtiyac var. Ermənistanın baş naziri Nikol Paşinyan təhlükəni hiss edərək erməni xalqına Konstitusiyanın dəyişdirilməsi vacibliyi barədə açıqlama verib. Paşinyan nəhayət ki, sülhün əldə olunmasında əsas maneəni ortadan qaldırmağa qərar verib. Real addımlar gözləyirik. Nə qədər ki, ABŞ və Rusiyanın başı Ukraynaya qarışıb, bu ikilinin Cənubi Qafqaza hər hansı formada müdaxiləsini gözləmədən Azərbaycanın tələbləri çərçivəsində sülh sazişinin imzalanması və Zəngəzur dəhlizinin açılması vacibdir".



❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**

## ABŞ Azərbaycandan daha çox qeyri-neft məhsulları alıb

**Azərbaycan Amerika Birləşmiş Ştatlarına (ABŞ-a) qeyri-neft məhsullarının ixracını artırıb. Teleqraf xəbər verir ki, Dövlət Gömrük Komitəsinin açıqladığı rəqəmlərə görə, bu ilin yanvar ayında ABŞ Azərbaycandan 5 milyon 396 min dollar dəyərində qeyri-neft məhsulu alıb.**

Bu, 2024-cü ilin yanvarı ilə müqayisədə 604 min dollar və ya 14 faiz çoxdur.

Ötən ilin yanvarında ABŞ-ın Azərbaycandan bu cür məhsulların idxalı 4 milyon 732 min dollar dəyərində olmuşdu.

Ümumiyyətlə, 2024-cü ildə ABŞ Azərbaycandan 134 milyon 663 min dollar dəyərində qeyi-neft məhsulu idxal edib.

## ABŞ-da ailələrə 5 min dollar verəcəklər?

**Texnologiya milyarderi İlon Mask rəhbəri olduğu Hökumətin Səmərəliliyi Departamentinin (DOGE) əmanətlərindən istifadə edərək, vergi öhdəlikləri-ni artıqlaması ilə yerinə-yetirən amerikalı ailələrə 5 000 dollar "dividend" qaytarmağı düşünür.**

Teleqraf xəbər verir ki, o, bu barədə "X" sosial platformasında paylaşımlardan birinə cavabında bildirib.

Xüsusilə, 36 trilyon dollarlıq böyük borc və Respublikaçıların hazırda nəzərdən keçirdiyi 4,5 trilyon dollarlıq vergi ixtisarı fonunda bunun mümkün olub-olmayacağı hələlik sual altındadır.

The "Daily Beast" saytı "DOGE"un artıq 55 milyard dollar qənaət etdiyini, lakin bu məbləğin yalnız üçdə birini göstərə bildiyini iddia edib.

Qeyd edək ki, "DOGE" dividendinin ictimaiyyətə paylanması ideyası ilk dəfə "Azoria" investisiya şirkətinin baş direktoru və "DOGE"un məsləhətçisi Ceyms Fişbek tərəfindən "X" platformasında irəli sürülüb.

ABŞ Prezidenti Donald Tramp da Hökumətin Səmərəliliyi Departamentinin (DOGE) yığımlarının 20 faizini amerikalılara verməyi nəzərdən keçirdiklərini açıqlayıb.

Elon Maskın DOGE-nin rəhbərliyinə gətirildikdən sonra böyük işlər gördüyünü deyən Tramp milyarderin hökumətdə israf, saxtakarlıq və sui-istifadə ilə mübarizə apardığını, inflyasiyanın qarşısını aldığını bildirib.

YENİ MÜSAVAT
N 34 (8644) 22 fevral 2025



# Moskva Bəyannaməsindən 3 il ötdü - Gəldiyimiz nöqtə

## Azərbaycan təyyarəmizin vurulmasından sonra Rusiyanın sərgilədiyi qeyri-dost münasibətə baxmayaraq, Şimal-Cənub nəqliyyat dəhlizinin inkişafı istiqamətində fəaliyyətini davam etdirir

**Fevralın 22-də Azərbaycan və Rusiya arasında imzalanan Moskva Bəyannaməsinin üçüncü ildönümüdür. İqtisadi, siyasi, hərbi, mədəni, sosial və demək olar ki, əksər sahələdə əməkdaşlığın dərinləşdirilməsini nəzərdə tutan sənədin 22-32-ci bəndləri (11 bənd) tərəflər arasında sırf iqtisadi-ticari, logistik və energetik əməkdaşlığa həsr olunub.**

Bəyannaməyə əsasən tərəflər iki ölkənin ticarət-iqtisadi əlaqələrinin davamlı artımının təmin edilməsi üçün vacib əhəmiyyəti olan Rusiya Federasiyası və Azərbaycan Respublikası arasında iqtisadi əməkdaşlıq üzrə Hökumətlərarası Komissiyanın işinə hərtərəfli yardım etməyə davam edəcəklər. Eyni zamanda tərəflər milli qanunvericilikləri çərçivəsində metallurgiya, neft-qaz və ağır maşınqayırma, aviasiya, avtomobil, kimya, əczaçılıq və yüngül sənaye, kənd təsərrüfatı, yol-tikinti və qida maşınqayırması müəssisələri arasında iqtisadi əlaqələrin daha da inkişaf etdirilməsinə imkan yaradacaqlar.

Sənədin imzalanmasından ötən 3 ildə Hökumətlərarası Komissiyanın 3 iclası keçirilib: 2022-ci ili aprelində Bakıda 20-ci, 2023-cü ilin iyulunda Moskvada 21-ci, 2024-cü ilin avqustundan Bakıda 22-ci iclas. Bundan əlavə, Komissiyanın alt qruplarının çoxsaylı toplantıları təşkil olunub.

Bəyannamənin 25-ci bəndinə əsasən Rusiya Federasiyası və Azərbaycan Respublikası digər Tərəfin maraqlarına birbaşa və ya dolayı zərər vuran hər hansı iqtisadi fəaliyyətlərin həyata keçirilməsindən çəkinməyi öhdələrinə götürüblər. Azərbaycan öz tərəfindən bu bəndə tam əməl edib: Qərbin Rusiyaya qarşı tətbiq etdiyi 800-dən çox sanksiyanın heç birinə qoşulmayıb, bu ölkə ilə ticarət-iqtisadi əlaqələrin inkişafına nəinki mane olmayıb, əksinə, genişlənməsi üçün çoxsaylı addımlar atıb.

Verilən rəsmi məlumata əsasən, Rusiyanın 80-dən çox subyekti Azərbaycanla ticarət-iqtisadi əlaqələri dəstəkləyir. Rusiyanın 12 regionu Azərbaycan hökumətilə ticari-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında sazişlər imzalayıb. 2024-cü ilin yanvarında Azərbaycan Baş nazirinin müavini Şahin Mustafayev və Rusiya Hökuməti sədrinin müavini Aleksey Overçuk Azərbaycan-Rusiya əməkdaşlığının inkişafının əsas istiqamətləri üzrə 2024-2026-cı illər üçün Yol Xəritəsini imzalayıblar. Verilən açıqlamaya əsasən Yol Xəritəsi ticarət-iqtisadi və investisiya qoyuluşu, nəqliyyat, sənaye, aqrar və qida təhlükəsizliyi, enerji, turizm, humanitar və sosial, həmçinin innovasiya və informasiya texnologiyaları sahələrində əməkdaşlığın inkişaf etdirilməsi ilə bağlı konkret addımların atılmasını nəzərdə tutur.

Azərbaycanda Rusiya biznesi ilə əczaçılıq və neft-kimya, qida sənayesi və şərabçılıq, mədən sənayesi və tikinti materiallarının istehsalı, avtomobil sənayesi və avadanlıqlara texniki xidmət sahələrində əməkdaşlığın uğurlu nəticələri var. 2024-cü il avqustun 18-19-da Azərbaycan dövlət səfərində olan Rusya Prezidenti Vladimir Putin də mətbuata bəyanatında çıxış edərkən bu məsələyə toxunub: "Rusiya ən iri investorlar sırasına daxildir və biz buna yalnız sevinirik. Azərbaycan bazarında şirkətlərimiz özünü yetərincə rahat hiss edir. Artıq xatırladıldı ki, burada həm "LUKOYL", həm yığılma istehsalını təşkil edən "KamAZ", həm də "Sollers", "UAZ" var. Onlar uğurla fəaliyyət göstərir və inkişaf perspektivlərinə malikdir. Biz onların işinə yaradılan şəraitə görə Azərbaycan hakimiyyətinə minnətdarıq. "Transmaşholdinq" fevral ayında Bakı Metropoliteni üçün Rusiya vaqonlarının böyük partiyasının istehsalına dair növbəti müqavilə bağlayıb. Ümidvaram ki, bu qatarlardan istifadə edənlər də razı qalacaqlar".

Rəsmi açıqlamalardan aydın olur ki, Azərbaycanda Rusiya kapitallı 1400-dən çox müəssisə fəaliyyət göstərir. Onların 300-ə yaxını 100 faiz Rusiya sərmayəsinə malikdir. 2023-cü ildə Rusiyanın Azərbaycan iqtisadiyyatına birbaşa investisiyalarının məbləği 300 milyon dollara yaxın olub. İndiyədək Azərbaycandan Rusiya iqtisadiyyatına yatırılan investisiyaların həcmi 2 milyard dollara yaxınlaşır.

Bəyannamə imzalandıqdan sonrakı qısa müddət ərzində Dağıstan, Tatarıstan, Başqırdıstan, Udmurt, Həştərxan vilayəti, Perm diyarı, Ryazan vilayəti və Rusiyanın digər subyektləri ilə qarşılıqlı səfərlər həyata keçirilib. Azərbaycan Rusiyanın 80-ə yaxın subyekti ilə iqtisadi və humanitar sahələrdə mühüm əlaqələr qurub, 20 subyektlə iqtisadi-ticarət, elmi-texniki və mədəni sahələrdə qarşılıqlı fəaliyyətə dair sənədlər imzalanıb.

Ölkələr arasında qarşılıqlı ticarətin həcmində ciddi artım var. Belə ki, 2021-ci ilin yekunlarına görə, Azərbaycan ilə Rusiya arasında ticarət dövriyyəsinin həcmi 2020-ci illə müqayisədə 12,1 faiz artaraq 2,99 milyard ABŞ dollarına çatıb. Bunun 2,1 milyard dolları Azərbaycanın idxalının, 920 milyon dolları isə ixracının payıdır. Rusiya Azərbaycanın 3-cü böyük ticarət tərəfdaşı olub, idxalda 1-ci yerdə qərarlaşıb.

2022-ci ildə iki ölkə arasında ticarət dövriyyəsi 3 milyard 700 milyon ABŞ dolları təşkil edib. Bunun 975 milyonu Azərbaycanın ixracı, 2 milyard 734 milyonu idxalının payına düşüb. Yenə idxalda Rusiya birinci, ümumi ticarət dövriyyəsinə görə 3-cü böyük tərəfdaş ölkə olub.

2023-cü ildə qarşılıqlı ticarətin həcmi 4,4 milyard dollara yüksəlib. Bu zaman Rusiyaya ixracımız 1,2 milyard dollar, oradan idxalımız isə 3,2 milyard dollar təşkil edib. Rusiya yenə idxalda birinciliyi saxlayıb.

2024-cü ildə ölkələr arasında ticarətin həcmi 4,8 milyard dollar təşkil edib. Bunun 1,2 milyard dolları Azərbaycanın Rusiyaya ixracı, 3,6 milyard dolları isə oradan idxalıdır. Ötən il Rusiya idxaldakı birinciliyi itirərək, Çindən sonra ikinci olub.

Bəyannamədə nəzərdə tutulur ki, tərəflər intellektual nəqliyyat sistemləri texnologiyalarından istifadə etməklə tranzit-nəqliyyat qarşılıqlı fəaliyyətinin potensialının ardıcıl inkişafını, "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizinin davamlı və tammiqyaslı fəaliyyəti üçün texniki və iqtisadi şəraitin təmin edilməsini hədəfə alıblar. Həmçinin tərəflər onların ərazilərindən keçən beynəlxalq nəqliyyat dəhlizlərinin təhlükəsizliyinin və fasiləsiz fəaliyyətinin təmin edilməsi məsələlərinin həllində bir-birinin səylərini dəstəkləyəcək və bir-birinə milli qanunvericilik və ikitərəfli razılaşmalar çərçivəsində tranzit daşımaları üçün əlverişli şərait yaradacaqlar.

Azərbaycan Ukraynadakı işğalçı müharibəyə görə ən sərt sanksiyalara məruz qoyulan Rusiyanın Asiya ölkələri ilə genişləndirməyə çalışdığı ticarəti üçün Şimal-Cənub nəqliyyat dəhlizinin əhəmiyyətini qiymətləndirərək, bu dəhlizin öz ərazisindən keçən hissəsinin yükötürmə imkanlarının artırılması üçün böyük işlər görməkdədir. Layihə çərçivəsində Bakıdan Rusiya ilə sərhədə qədər yeni dördzolaqlı magistral yolun, sərhədyanı Samur çayı üzərində birgə körpü istifadəyə verilib. Azərbaycan ərazisində "Şimal-Cənub" nəqliyyat dəhlizinin həm dəmir yolu, həm də avtomobil yolu marşrutları üzərində işlər tam yekunlaşıb və davamlı təkmilləşdirici addımlar atılır. Gələcəkdə dəhlizin ötürücülük qabiliyyətinin 15 milyon ton və daha çox olması hədəflənir.

Azərbaycan Şimal-Cənub nəqliyyat dəhlizinin inkişafı istiqamətində fəaliyyətlərini AZAL təyyarəsinin Rusiya səmasında vurulmasından sonra Moskvanın sərgilədiyi qeyri-dost münasibətə baxmayaraq, davam etdirir. Prezident İlham Əliyev fevralın 11-də "Azərbaycan Respublikası Hökuməti ilə Rusiya Federasiyası Hökuməti arasında "Şimal-Cənub" beynəlxalq nəqliyyat dəhlizi ilə tranzit yük daşımalarının inkişafı məqsədilə əməkdaşlıq haqqında Saziş"in təsdiq olunmasını nəzərdəm tutan fərman imzalayıb. Fərmanla ötən ilin dekabrında Moskvada tərəflərin imzaladığı saziş təsdiqlənməklə yanaşı, sazişin müddəalarının həyata keçirilməsini təmin etmək Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinə həvalə olunub.

Saziş imzalanarkən verilən rəsmi açıqlamaya əsasən dəmiryolu infrastrukturunun və tranzit daşımalarının inkişafı üzrə əməkdaşlığın şərtlərini müəyyən edən sazişin məqsədi nəqliyyat əlaqələrinin səmərəliliyini yüksəltmək və "Şimal-Cənub" Beynəlxalq Nəqliyyat Dəhlizinin Qərb marşrutunun potensialını artırmaqdır. Sənədin dəmiryol nəqliyyatı ilə yüklərin daşınma həcminin artmasını stimullaşdıracağı və daşıma həcmlərinin artım tempi ilə dəmiryol nəqliyyatı infrastrukturunun inkişafı arasında balansı təmin edəcəyi nəzərdə tutulur.

Azərbaycan tərəfindən atılan addımlar nəticəsində 2023-cü ildə dəhlizlə yükdaşımalar 9,3 milyon tona, 2024-cü ildə isə 9 milyon 896,5 min tona qədər artıb.

Bəyannamədə qeyd olunur ki, Rusiya və Azərbaycan milli qanunvericilikləri və kredit-pul siyasətləri çərçivəsində kredit-bank təşkilatlarının fəaliyyətinə, maliyyə institutlarının əməkdaşlığının inkişaf etdirilməsinə, maliyyə-sənaye qrupları, istehsal və digər təşkilati-təsərrüfat strukturları da daxil olmaqla birgə müəssisələrin yaradılmasına yardım göstərməyə hazırlıqlarını ifadə edirlər. Eyni zamanda tərəflər qarşılıqlı hesablaşmalarda milli valyutalardan istifadəyə, bank kartlarına birgə xidmət daxil olmaqla ödəniş sistemlərinin qarşılıqlı uyğunluğuna, eləcə də iki ölkənin bankları arasında birbaşa müxbir münasibətlərin inkişaf etdirilməsinə imkan yaradacaqlar. Azərbaycan tərəfi bu bəndlərlə üzərinə götürdüyü öhdəlikləri Qərb sanksiyalarının pozulmaması şərtilə mümkün qədər icra edib. Verilən rəsmi açıqlamalara əsasən hazırda tərəflər arasında qarşılıqlı ticarətin 70 faizdən çoxu milli valyutalarla həyata keçirilir. Rusiyanın VTB bankının yerli filialının fəaliyyətinə hər cür şərait yaradılır.

Nəhayət, sənəddə Rusiya və Azərbaycanın bərabərhüquqlu və qarşılıqlı faydalı əsasda beynəlxalq enerji əməkdaşlığının stimullaşdırılması və qlobal enerji təhlükəsizliyinin möhkəmləndirilməsi məqsədilə sıx qarşılıqlı fəaliyyət həyata keçirərək yanacaq-energetika sahəsində, o cümlədən səmərəli infrastruktur layihələrinin cəlb edilməsi də daxil olmaqla neft-qaz yataqlarının kəşfiyyatı və emalı, enerji resurslarının nəqli sahəsində, eləcə də alternativ və bərpa olunan enerji mənbələri və enerji səmərəliliyi sahəsində əməkdaşlığı dərinləşdirmək niyyətində olduqları qeyd edilib. Bu sahədə Azərbaycan Rusiyanın Lukoyl şirkətinin ölkədəki fəaliyyətinə hərtərəfli dəstək verir. Şirkətin 2021-ci ildə "Şahdəniz" layihəsində 9,9 faiz əlavə pay alışına dair müqaviləsinə məhz 2022-ci ildə icazə verilib, proses yekunlaşıb.

Bəyannamənin icra olunmayan tək bəndi atom energetikası sahəsində əməkdaşlıqla bağlıdır. Orada qeyd olunur ki, tərəflər atom enerjisindən dinc məqsədlərlə istifadə sahəsində qarşılıqlı faydalı əməkdaşlığın inkişaf etdirilməsi imkanlarını nəzərdən keçirəcəklər. Azərbaycan Prezidenti İlham Əliyev 2024-cü ildə Rusiya mediasına müsahibədə bəyan edib ki, ölkəmizdə atom elektrik stansiyasının qurulmasına ehtiyac duyulmur, çünki Azərbaycan bərpa olunan enerji sahəsinə istiqamətlənib, bu sahədə çox böyük olan potensialından yararlanmaq niyyətindədir.

**Dünya SAKİT,**
**"Yeni Müsavat"**

# ABŞ-Rusiya barışığı İrəvana şans pəncərəsi açır? - rəy

## Ermənilər yeni utopik xülyalara qapılıblar; politoloq isə deyir ki...

**ABŞ-Rusiya münasibətlərində ılıqlaşma Ermənistan hakim çevrələrində müəyyən çaşqınlıq və ehtiyatlılıq yaradıb. Bu fonda üstəlik, sabiq prezident, Xocalı hərbi canisi, Putinin dostu Robert Köçəryanın peyda olaraq İrəvanda geniş mətbuat konfransı keçirərək, həm iqtidarı, həm də Qərbi asıb-kəsməsi, Rusiyanı isə öyməsi əlavə suallar doğurub. Lakin fərqli mövqedə olanlar da var. Məsələn, özünü türkoloq sayan revanşist Vaqujam Gegamyan hesab edir ki, Türkiyənin Ukrayna böhranı ilə bağlı ABŞ və Rusiya arasında neytral məkan qismində seçilməməsi kapitulyant ölkə üçün hansısa yeni imkan pəncərəsi açıb və qalır rəsmi İrəvanın ondan istifadəsi.**

“Məncə, mühüm detallardan biri odur ki, Türkiyə faktiki olaraq neytral ölkə statusunu itirib və o səbəbdən münaqişədə vasitəçi statusundan məhrum olub. Halbuki 2022-2023-cü illərdə problemlərin həlli üçün əsas vasitəçi Ankara idi. İndi vəziyyət dəyişib. Türkiyə öz rolunu Səudiyyə Ərəbistanına verib. Bu, Ermənistan üçün yaxşı xəbərdir, çünki bu, Türkiyəni xarici siyasət məsələlərində geniş manevr meydanından məhrum etməklə yanaşı, Ankaranın Moskva üçün rolunun azaldığını və ikitərəfli münasibətlərdə gərginlik yaşandığını göstərir”, - “türkoloq” yazıb. Revanşist erməni türkoloq ardınca əsas arzusunu dilə gətirir: “Bütün bunlar bir sıra digər faktlarla birlikdə Türkiyənin Cənubi Qafqazdakı rolunun nisbi məhdudluğu baxımından müəyyən nikbinliyə əsas yaradır. Təbii, bu o demək deyil ki, bizə qarşı təhdidlər avtomatik şəkildə aradan qalxacaq. Bununla belə, onlara qarşı direniş imkanları artır, milli qüvvələr bundan yararlanmalıdır”. ABŞ-Rusiya barışığı doğrudanmı Ermənistana Azərbaycan və Türkiyəyə qarşı şans pəncərəsi aça bilər?

Politoloq Oqtay Qasımov “Yeni Müsavat”a bildirdi ki, Ermənistan mediasında bu tipli iddiaları zaman-zaman görməkdəyik: “Onlar hər bir hadisədən Ermənistanın xeyirinə nələrsə görməyə çalışırlar. Məhz Rusiya-Amerika yaxınlaşması Ermənistanda əslində müəyyən ehtiyatlılıq yaradıb. Nikol Paşinyanın da konstitusiya ilə bağlı məlum açıqlaması onu göstərir ki, Paşinyanın özü də Rusiya-ABŞ dialoqunun başlanmasından müəyyən narahatlıq keçirir və Tramp administrasiyasının əsas prioritetinin heç də Cənubi Qafqaz olmayacağını və Co Bayden adminstrasiyası ilə Ermənistanın imzaladığı məlum memorandumun yaxın perspektivdə işlək vəziyyətdə olmayacağı qənaətinə gəlib. Şübhəsiz ki, Rusiyanın masaya qayıtması və onun tərəf müqabili kimi qəbul edilməsi onun həm izolyasiyadan çıxmasına, eyni zamanda yenidən real güc mərkəzi kimi qəbul olunmasına səbəb ola bilər”.



Ekspertin fikrincə, doğrudur, proseslər hələlik ilkin mərhələdədir və necə yekunlaşacağı ilə bağlı qəti bir fikir söyləmək çətindir: “Çünki Amerikanın əsl məqsədlərinin nədən ibarət olacağı və Rusiya ilə yaxınlaşmadan hansı güzəştləri alacağı ilə bağlı hələlik dəqiq məlumatlar yoxdur. O ki qaldı ermənilərin Türkiyənin vasitəçilik imkanları ilə bağlı iddialarına, bu bir manipulyasiyadır. Sadəcə olaraq onlar bu tipli tezislərlə Nikol Paşinyanı ittiham etməyə çalışırlar ki, guya o, Türkiyə ilə yaxınlaşmağa çalışıb və nəticədə Türkiyə bölgədəki proseslərdə əsas vasitəçi olub. Halbuki 2022-2023-cü illərdə Azərbaycanla Ermənistan arasında proseslərdə daha çox Rusiya və Qərb vasitəçi rol oynamışdı. Ondan sonrakı dönəmdə isə ikitərəfli danışıqlar formatı işə düşüb”.

Politoloq düşünmür ki, ABŞ-Rusiya yaxınlaşması Türkiyənin mövqeyini Cənubi Qafqazda və ümumiyyətlə bütün regionda zəiflədib: “Əksinə, Türkiyənin mövqeyi kifayət qədər güclənib. Suriyada baş verənlər Türkiyənin gücünü ortaya qoydu. Hazırda Türkiyə həm Rusiya, həm də Amerika ilə dialoq halındadır. Həm yaxın Şərqdə, həm də Cənubi Qafqazda əsas güclərdən biri Türkiyədir. Hətta ermənilərin xəyal etdiyi kimi, Türkiyənin mövqeyi müəyyən qədər zəifləyəcəksə belə, bu o demək deyil ki, ermənilərin bu prosesdə uduşu var. Çünki Ermənistanın və onun arxasında dayanan qüvvələrin əsas rıçaqları əllərindən çıxıb. Yəni 30 il ərzində işğal altında saxladıqları Azərbaycan əraziləri azad olunub, işğal faktına son qoyulub. O baxımdan, ermənilərdə indi utopik xülyalar müəyyən qədər özlərinə təskinlik vermək məqsədi daşıyır və böyük ölçüdə nə Rusiya, nə də Amerika gəlib ermənilərin əvəzindən bölgədə vuruşub onların məsələlərini həll edəcəklər”.

❑ **Etibar SEYİDAĞA, “Yeni Müsavat”**

# İrəvanın Zəngəzur dəhlizi ilə bağlı qərar vermə zamanı...

## Ermənistan 10 noyabr sənədindən imtina edir; analitik: “Bu o anlama gəlmir ki...”




**“Ermənistan hökuməti 10 noyabr 2020-ci il üçtərəfli bəyanatına qayıtmaq məsələsini nəzərdən keçirmir”. Bunu Ermənistanın Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan deyib. O bildirib ki, sənədin 8 bəndi icra edilmədiyi üçün 9-cu bənd səbəbindən həmin sənədə qayıtmaq təəccüb doğurur.**

Qeyd edək ki, 9-cu bənd Zəngəzur dəhlizi haqdadır. Əlbəttə ki, Azərbaycan üçün daha vacib və əsas olan Naxçıvanla əlaqənin maneəsiz və təhlükəsiz rejimdə təmin edilməsi, insanların və yüklərin yolda heç bir yoxlamaya məruz qoyulmamasıdır. Yerdə qalanlar isə detallardır. Bu yerdə xatırladaq ki, Prezident İlham Əliyev “Zəngəzur dəhlizi” açılmalıdır və açılacaq" deyib. Dövlət başçısı həmçinin dəhlizin Ermənistanın ərazi bütövlüyünə zidd olmadığını bildirib.

O ki qaldı 10 noyabr sənədinin 9-cu bəndinə, harda ki dəhlizə nəzarət Rusiyaya həvalə edilir, bu xüsusda İrəvan qərar verməlidir. Hər halda 10 noyabr sənədindən ən bərk yapışan Moskvadır - təbii ki, öz maraqları naminə. İrəvanın Zəngəzur qərarı nə olacaq?

Mövzu ilə bağlı politoloq Elxan Şahinoğlu “Yeni Müsavat”a verdiyi açıqlamada Ermənistanın rəsmi mövqeyinin dəyişdiyini qeyd edib: “Ermənistan hökuməti artıq Rusiyanın vasitəçiliyini qəbul etmir və 10 noyabr üçtərəfli bəyanatının hüquqi qüvvəsinin itirildiyini hesab edir. Bunun səbəbi isə ermənilərin yanlış düşüncəsidir ki, guya Rusiya Qarabağda erməni əhalisini qorumalı və separatçı qüvvələri müdafiə etməli idi. Lakin Azərbaycan öz ərazi bütövlüyünü tam şəkildə təmin etdi. Bu, Azərbaycanın daxili məsələsidir və Ermənistanın 9 noyabr bəyanatından imtina etməsi onun öz qərarıdır. Amma Zəngəzur dəhlizi tamam fərqli bir mövzudur”.

Ekspert vurğulayıb ki, Ermənistan 9 noyabr sənədindən imtina etsə belə, bu, Zəngəzur dəhlizinin tamamilə arxa plana keçməsi anlamına gəlmir, Azərbaycan üçün bu məsələdə daima gündəmdə qalacaq: “Ola bilsin ki, 9 noyabr bəyanatında Zəngəzur dəhlizi nəzərdə tutulurdu, amma Ermənistan bu sənəddən imtina edirsə, deməli, həmin bəndi də icra etməyəcəyini bəyan edir. Lakin bu o demək deyil ki, Zəngəzur məsələsi unudulacaq. Azərbaycan hər zaman bu mövzunu diqqətdə saxlayır. Ermənistanın baş naziri Nikol Paşinyan da zaman-zaman bu barədə açıqlamalar verir. Hətta Ermənistanda belə bir müzakirə gedir ki, hökumət bu dəhlizin maneəsiz istifadəsi ilə bağlı Azərbaycanla razılığa gələ bilər.”

E.Şahinoğlu həmçinin Ermənistanın yaxın gələcəkdə Konstitusiyasında dəyişikliklər edəcəyini elan etməsini vacib məqam kimi qeyd edib: “İki gün əvvəl Paşinyan Ermənistan Konstitusiyasının dəyişdiriləcəyini açıqladı. Bu, o deməkdir ki, Ermənistan Konstitusiyasından Azərbaycan və Türkiyəyə qarşı ərazi iddialarını əks etdirən bəndlər çıxarıla bilər. Əgər bu baş verərsə, o zaman Azərbaycanla sülh sazişinin imzalanması da sürətlənə bilər. Zəngəzur dəhlizi isə iki ölkə arasında sülhün formalaşmasında mühüm rol oynaya bilər.”

Rusiyanın Zəngəzur dəhlizinə nəzarəti məsələsi və Azərbaycanın mövqeyinə gəldikdə, ekspertin fikrincə, Zəngəzur dəhlizi məsələsində ən mühüm məqam Rusiyanın rolu və gələcəkdə dəhlizə nəzarət mexanizminin necə qurulacağıdır: “Ermənistan 9 noyabr bəyanatının qüvvəsini tanımasa da, bu, Zəngəzur dəhlizinin açılmasına ciddi maneə olmayacaq. Rusiya ilk başdan bu dəhlizə nəzarət etmək niyyətində olub. Ancaq indi nə Ermənistan, nə də Azərbaycan bu ssenarini qəbul etmir. Azərbaycan üçün ən vacib məsələ Naxçıvanla birbaşa, maneəsiz və təhlükəsiz əlaqənin təmin olunmasıdır. Ermənistan isə hələ də tərəddüd edir, lakin daxili və xarici təzyiqlər fonunda bu mövzu gündəmdən düşməyəcək. Beləliklə, Zəngəzur dəhlizi məsələsi regionda uzunmüddətli strateji önəm kəsb edir. Ermənistanın 9 noyabr bəyanatından imtina etməsi yeni hüquqi və siyasi çətinliklər yaratsa da, Azərbaycanın bu dəhlizin açılması istiqamətində səyləri davam edəcək. Əgər Ermənistan Konstitusiyasında dəyişiklik edər və ərazi iddialarından imtina edərsə, bu, təkcə Zəngəzur dəhlizi üçün deyil, ümumiyyətlə Azərbaycan-Ermənistan münasibətlərində dönüş nöqtəsi ola bilər”.

❑ **Xalidə GƏRAY, “Yeni Müsavat”**



# Hi hao, Bibixanım müəllimə

Zamin HACI
zaminhaci@gmail.com

**Bu yaxında Hesablama Palatası "Təmiz Şəhər" ASC-yə istinadla belə bir maraqlı rəqəm açıqlamışdı: Bakı şəhərində məişət tullantılarının 58 faizə yaxını hara gedir, məlum deyildir.**

El dilində yazsaq, paytaxtımızın zibilinin 42 faizi zibil emalı zavodlarına yox, harasa əsrarəngiz yerlərə atılırmış. İdarə həmin yerləri tapa bilməmişdi. Ancaq mən müəyyən ip ucu verərəm: həmin zir-zibilin bəziləri bu gün öz ana dilinə, öz vətəninə, öz xalqına yuxarıdan aşağı baxan, ona nifrət edənlərdir. Böyük yazıçı Çingiz Aytmatov demişkən, manqurtlar.

Bəs bu manqurtları yığışdırmaq lazımdırmı? Yəqin ki, yox. Hər halda yuxarıdan instruksiya gəlməlidir. Hələlik belə planlar yoxdur. Olarsa, inşallah, maşallah, əlhəmdüllah - bu cür işləri də yaxşı bacarırıq. Məsələn, keçən əsrin 30-larında Azərbaycanda bəzi şəxsləri... Yaponiyaya casusluq etmək ittihamıyla gedər-gəlməzə yola salmışdılar.

Yaponiya yazdım ağlıma gəldi, bir də mənə gülməli gələn odur ki, son dövr manqurtlarımız rəsmi trendləri səhv müəyyən edirlər. Biz əslində indi nə Anadolu türkcəsini, nə urus dilini öyrənməliyik, yolumuz Çinə doğrudur! Təklif edirəm Bakıda çindilli huehiao-lar açılsın.

Bəli, düz anladınız, huehiao çin dilində məktəb deməkdir. Uşkol, okul, mədrəsə yani. Məktəb direktoruna da hiaozhang deyilir. "Huehiaomuzun hiaozhangı Bibixanım laoşi hueşenglərə çox gözəl ke keçir". Gördüyünüz kimi, o qədər çətin deyil. Yavaş-yavaş öyrənəcəyik. Moskva... tfu, əlim çaşdı, Çin səddi bir günə tikilməyibdir ki?

Rəhmətlik Elçibəyin bir sözü var idi, hansısa kadrını tənqid eləyəndə deyirdi ki, nə edim, gedib sizin üçün İsveçrədən millət gətirməyəcəm. Amma ola bilsin gələcəkdə bizə lazım oldu. Məsələn, Orta Doğuda belə neft krallıqları var, əhalisinin müəyyən hissəsi hindistanlı, banqladeşli, pakistanlılar-filandır. Başlarını aşağı salıb işlərini görürlər, heç vaxt boş-boş mövzularda da laqqırtı eləmirlər. Yaşamaq yanmaqdır, şair demişkən.

Şair yazdım yadıma düşdü, 1990-cı ildə, "20 yanvar" hadisəsindən sonra şair Hüseyn Arifə xəbər verirlər ki, camaat Mərkəzi Komitənin qabağında partbiletlərini yandırır, Bəxtiyar Vahabzadə də öndə gedir, sən də tərpən, şair deyir: "Əşşi, Bəxtiyar müəllim yandıra bilər, onun evdə üç dənə partbileti var".

Fürsətdən istifadə edərək Bəxtiyar müəllimin qarşıdan gələn 100 illiyinə də hazır olmalıyıq.

Bəli, çalışmaq lazımdır evdə partbilet çox olsun. Nə qədər çox partbiletin olsa, o qədər adamsan. Bunu "Mumiya" filmində yaxşı təsvir ediblər - doğrudur, medalyon şəklində. Hətta ən düzgün üsul odur ki, hər partbiletin üç surətini saxlayasan.

Mövzuya top vurmaq çıxmasın (guya müəllif mövzunun nə olduğunu bilirmiş), təzəlikcə bu kimi istiqamətlərdə ən düzgün qərarlardan birini futbol federasiyamız - AFFA verdi. Əslində idman sahəmizdə həmişə düzgün qərarlar verilir, axırıncı karateçiyə də vəzifə verildi, bin daha göstərdik ki, ağlamayana məmə, şpaqat açmayana pəpə yoxdur. Nə isə, AFFA qərar verdi ki, indən belə milli çempionatımızda legioner limiti ləğv olunsun.

Çox əla qərardır. Daha Azərbaycanın palçıqlı, kir-pasaqlı kəndlərini dolaşıb qaraqura azərbaycanlı uşaqları toplamaq və onlara top qovmağı öyrətməyə heç bir ehtiyac qalmır. Pulu verirsən, xaricdən oyunçu alırsan, oynayırlar. Vəssalam. Bu da olur ölkəmizdə milli idmanın inkişafı. Xalqa nə lazımdır?

Üstəlik, dünya təcrübəsi də aşağı-yuxarı bu istiqamətdə gedir. Bu yaxında "Liverpul"un meydana çıxardığı komandada nəinki bircə damazlıq ingilis yox idi, hətta 11 nəfərin hamısı xaricdə doğulmuşdu. Obyektiv olmalıyıq.

Mövzü bitdi, hələlik. Daha dəqiqi, tszay tszyan.




# Ermənistan təhlükəsizlik strategiyasını da dəyişir

## İrəvan uzunmüddətli sülhə gətirəcək müqavilə imzalamaq istəyir, yoxsa vaxt udmaq üçün düşünülüb?

**Bir neçə gün əvvəl Ermənistanın baş naziri Nikol Paşinyan xalqa "ideoloji müraciət" edərək konstitusiyanın dəyişdirilməsi üçün referendum keçirilməsinin vacibliyini bildirib. Onun sözlərinə görə, hazırkı konstitusiyanın qəbul edilməsi ilə bağlı keçirilən əvvəlki referendumlar legitimlik baxımından cəmiyyət tərəfindən ciddi sual altına qoyulub.**

Paşinyana görə, Ermənistanda heç vaxt vətəndaşların konstitusiyanı özlərinin qəbul etdiyi hissi olmayıb və bunun səbəbi siyasi proseslərlə bağlıdır. O hesab edir ki, ermənilər əsrlər boyu başqalarının yaratdığı dövlətlərdə və onlara kənardan təlqin olunan hüquqi sistemlərdə yaşayıblar. Bu da onların hüquqa yanaşma tərzinə təsir edib: "Biz əsrlər boyu başqa dövlətlərdə, başqalarının yaratdığı sistemlərdə yaşamışıq və xaricdən bizə təlqin olunan hüquqi normalara tabe olmuşuq. Bu düşüncə hələ də qalmaqdadır. Hüquq sisteminə münasibətimiz 130 və ya 200 il əvvəl olduğu kimidir - yad dövlətlərin bizə diktə etdiyi kimi."

Baş nazir vurğulayıb ki, yeni konstitusiyanın qəbulu mühüm məsələdir. O, Ermənistanı "dövlətsiz xalq" statusundan çıxararaq, dövlətçilik fəlsəfəsinə sahib bir millətə çevirmək üçün konstitusiyanın dəyişdirilməsinin əsas strateji məqsəd olduğunu bildirib. Yada salaq ki, Ermənistan Konstitusiyasının dəyişdirilməsi Azərbaycanın sülh müqaviləsi üçün əsas şərtlərindən biridir, çünki hazırkı konstitusiyada (preambula, Müstəqillik Aktına istinad) Azərbaycanın və Türkiyəyə qarşı ərazi iddiaları əks olunub.

Bundan əlavə, N.Paşinyan eyni gündə Ermənistanın yeni milli təhlükəsizlik strategiyasının hazırlanması üçün xüsusi komissiya yaratmaq barədə sərəncam verib. Maraqlıdır ki, Ermənistanın Təhlükəsizlik Şurasının katibi Armen Qriqoryan konstitusiyasının yeni mətnindən 1990-cı ildə qəbul edilmiş Müstəqillik Bəyannaməsinin çıxarılacağı barədə xəbəri təsdiqləməkdən imtina edib. Bütün bunlar nədən xəbər verir, İrəvan Bakı ilə gerçəkdənmi uzunmüddətli sülhə gətirəcək müqaviləni 2025-də imzalamaq istəyir, yoxsa bu da vaxt udmaq üçün düşünülüb?

Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev "Yeni Müsavat"a açıqlamasında erməni baş nazirin Azərbaycanı burada nəzərə alıb belə bir addım atmaq niyyətində olduğunu bildirdi: "Sülh müqaviləsinin imzalanacağı istiqamətində atılacaq addımlarda Azərbaycanın irəli sürdüyü şərtlərdən ən mühümü məhz Ermənistan kontitusiyasının dəyişdirilməsi idi. Zaman-zaman bu məsələ həm Ermənistan parlamentində, həm də ayrı-ayrı siyasətçilər tərəfindən gündəmə gətirilsə də, artıq indi bu, Paşinyanın dilindən səslənməyə başlayıb. Məsələnin labüd olduğu qəbul olunmaqdadır. Paşinyan birbaşa deməsədə ki, bu Azərbaycanın tələbidir, məlumdur ki, burada Azərbaycan və Türkiyənin ərazi bütövlüyü məsələsi var. Demək bu ölkələr faktoru da bu məsələdə başlıca rol alır. Əvvəl dedilər ki, bu məsələ Konstitusiya Məhkəməsində həll olunsun, sonra parlament səviyyəsində həyata keçirilməsi müzakirə olundu, referendum yolu da gündəmə gətirildi. Siyasətçilər də deyirlər ki, bu referendumsuz da mümkündür. Bu cür problemlər var. Düşünürəm ki, Paşinyan təkcə avrointeqrasiya məsələsini deyil, Azərbaycanı mütləq şəkildə nəzərə almaqla bu addımları atmağa çalışır. Bir sıra dövlətlərdə bunun mütləq şəkildə hansı istiqamətlərdə inkişaf edəcəyi göstərilir. Düşünürəm ki, bunlar burada avrointeqrasiya məsələsini gündəmə gətirmək niyyətindədirlər. Yəni paralel olaraq, hansısa bir dövlətin ərazi bütövlüyünə iddiadan əl çəkmək və digər istiqamətlərdə addımlar atmaqdır. Artıq müraciət olunmaqdadır. Burada bunun müxalifət və hakimiyyətdən tərəfindən necə qarşılanması da bir faktdır. Ümumiyyətlə, bu, Ermənistan vətəndaşlarının bu proseslərə hazırlığıdır".

Sabiq deputat, siyasi təhlilçi Sona Əliyeva gələn il sülh sazişinin imzalanacağını düşünür: "İndiki mərhələdə gedişat onu göstərir ki, Nikol Paşinyan Azərbaycan və Türkiyə ilə münasibətləri yenidən formalaşdırmaq istəyində səmimidir. Çünki İrəvanın başqa çıxış yolu qalmayıb. İrəvan dalandan qurtulmaq üçün iki güclü qonşusu ilə münasibətlərində və qonşularına baxışlarında köklü dəyişikliklər etməlidir.

Bakı və Ankaranın bu məsələdə mövqeyi bəllidir. 1990-cı ildə qəbul olunmuş müstəqillik bəyannaməsindən konstitusiyaya transformasiya edilən maddələr oradan çıxarılmalıdır. Sərhədlərin delimitasiya işləri sürətləndirilməlidir və Ermənistan işğal altında saxladığı əraziləri geri qaytarmalıdır. Hələ də 4 kəndimiz ermənilərin işağlı altındadır. Düşünürəm ki, İrəvandakı hakimiyyət də bunu başa düşür və əks halda Ermənistanı çox mürəkkəb bir vəziyyətin gözləyəcəyini hiss edirlər. Ona görə də Nikol Paşinyan xalqı yeni referenduma hazırlamaq istəyir. Artıq qığılcımlar yandırılıb. Çox güman ki, 2026-cı ildə Ermənistanda yeni referendum keçiriləcək. Bundan sonra iki ölkə arasında sülh sazişi imzalanacaq. İndiki axarda Ermənistanın vaxt uzadacağı fikri inandırıcı deyil. Çünki ötən hər saat İrəvanın ziyanına işləyir".

Siyasi analitik Asif Nərimanlı isə İrəvanda mövcud reallığın artıq qəbul olunduğunu qeyd etdi: "Konstitusiyanın dəyişdirilməsi ilk növbədə Paşinyan komandasının Ermənistanın gələcəyinə dair vizyonundan qaynaqlanır. Çünki rəsmi İrəvan Qarabağsız gələcək qurmaq niyyətindədir, bunu praktiki müstəvidə həyata keçirsələr də, mövcud konstitusiya olduğu müddətdə konseptual nəticə əldə etmək mümkün olmayacaq və bu qanun Azərbaycanla problemlərin davam etməsində problem olaraq qalacaq. İrəvanda anlayırlar ki, Azərbaycanla sülh əldə edilmədən və kommunikasiya açılmadan Ermənistanın mövcudluğu sual altındadır, bu mövcudluq ən yaxşı halda digər ölkələrin vassalı olmaqdan uzağa getməyəcək. Mövcud konstitusiyanın dəyişdirilməsi bundan qaynaqlanır. Təbii ki, sülh məsələsində Ermənistanın öz maraqları var və müharibədən 5 il keçsə də, sülhün əldə edilməməsi məhz İrəvanın maraqlarından və qeyri-konstruktiv yanaşmalarından qaynaqlanır. Fikrimcə, konstitusiyanın dəyişdirilməsi Azərbaycanla sülh danışıqlarında Bakının haqlı tələblərindən birinin yerinə yetirilməsindən də qaynaqlanır. Paşinyan hakimiyyəti ümid edir ki, Bakının bu tələbini yerinə yetirsə, qarşılıqlı şəkildə İrəvanın da istəkləri nəzərə alına bilər, misal üçün, üçüncü ölkələrə məxsus qüvvələrin sərhəddən çıxarılması məsələsi arxa plana keçə bilər və s. Hərçənd, sülh sazişinin bu il ərzində reallaşması çətin görünür".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 34 (8644) 22 fevral 2025

# “907-ci düzəliş” ləğv edilir, sonra...” - Şok iddiaya Bakıdan reaksiya

## ABŞ və İsrailin Azərbaycandan faydalanması üçün bədnam qərar aradan qaldırıla bilərmi?

**“The Jerusalem Post” qəzeti Azərbaycan prezidentinin köməkçisi Hikmət Hacıyevlə İsrailin baş naziri Benyamin Netanyahu arasında fevralın 19-da baş tutan görüşü “regional siyasətdə dönüş nöqtəsi” adlandırıb. “Yeni Müsavat”ın xəbərinə görə, nəşr yazır ki, Netanyahunun ABŞ dövlət katibi Marko Rubio ilə strateji dialoqundan cəmi 48 saat sonra baş tutan yüksək səviyyəli görüş və müzakirələrlə tanış olan diplomatik mənbələrə görə, bu, Azərbaycanın potensial olaraq “İbrahim Sazişləri”nə daxil edilməsi üçün artan sürətdən xəbər verir.**




İsrailin yüksək rütbəli rəsmisi “The Jerusalem Post”a bu xüsusda deyib: “Azərbaycan 30 il ərzində müsəlman dünyasında İsrailin ən etibarlı tərəfdaşlarından biri olub. Onların regional təhlükəsizlik arxitekturası üçün strateji əhəmiyyəti layiqincə qiymətləndirilməlidir”. Qeyd olunur ki, görüş günü Begin-Sadat Strateji Araşdırmalar Mərkəzi “Azərbaycanı Trampın regional planlarına və İsrailin maraqlarına necə effektiv şəkildə cəlb etmək olar: praktik tövsiyələr” adlı xüsusi perspektiv hesabat dərc edib.

Orada bildirilir ki, İsrail və ABŞ-dakı İsrailyönlü qüvvələr Azərbaycanın ABŞ-İsrail regional inkişaf, investisiya və texnologiya tərəfdaşlıqlarına daxil edilməsini fəal şəkildə müdafiə etməlidir. Hesabatda həmçinin deyilir: “ABŞ və İsrail yeni ”Böyük Yaxın Şərq” arxitekturası çərçivəsində Azərbaycanın üstünlüklərindən tam şəkildə istifadə edə bilməsi üçün 907-ci maddə ləğv edilməlidir”.

“The Jerusalem Post” sonda vurğulayıb: “Tramp administrasiyası regional ittifaqları bərpa etməyə çalışdığı bir vaxtda Azərbaycan İsrailin ”Böyük Yaxın Şərq”ə inteqrasiyasına kömək edə, xüsusilə digər müsəlman ölkələri ilə təhlükəsizlik və iqtisadi əməkdaşlığın genişləndirilməsində həlledici rol oynaya bilər”. Qəzetin H.Hacıyevin İsrail səfərinə bunca önəm verməsi nə ilə bağlıdır? İddialar doğrudurmu?

Professor Qabil Hüseynlinin “Yeni Müsavat”a bildirdiyinə görə, sözügedən sanksiyanın müəlliflərindən biri keçmiş ABŞ prezidenti Cozef Bayden olub. Onun fikrincə, indi hakimiyyətdə olan Donald Tramp isə Azərbaycana münasibətində sələfindən fərqlənir: “Biz nəzərə almalıyıq ki, Tramp yevangelistlərə çox yaxındır və Amerika yəhudiləri onu yüksək səviyyədə dəstəkləyir. Biz onu da diqqətdən qaçırmamalıyıq ki, ABŞ Yəhudi Komitəsi ilə Azərbaycanın əlaqələri kifayət qədər yaxşıdır. Həmçinin, Netanyahunun bizə şəxsi münasibəti yüksəkdir. Yəhudi baş nazirin də Trampla görüşdə necə qarşılanmasını bura əlavə etsək, böyük ümid var ki, həmin qərar ləğv edilə bilər. Sadəcə, Konqresin mövqeyi bəlli olmalıdır”.

Q.Hüseynli Konqresdə respublikaçıların üstün olduğunu deyərək məsələnin həllini mümkün sayır: “Azərbaycan Tramp iqtidarından jest gözləməkdədir. Təbii ki, ABŞ və İsrailin regional proyektdə Azərbaycanın potensialından faydalanması bilməsi üçün qarşı tərəf də hansısa addımlar atmalıdır. Söhbət burada İrana qarşı hansısa planlarda ölkəmizin iştirakından getmir. Sadəcə olaraq, Azərbaycan ABŞ və İsraillə strateji tərəfdaş ölkələr kimi regional layihələrdə yer ala bilər. Bunun üçün bizim də öz istəklərimiz var. Əvvəla, hərbi dəstəyi qadağan edən həmin qərar ləğv olunmalıdır. Əgər İsrail mediası və eləcə də beyin mərkəzi bu haqda bəzi informasiyalar sızdırıbsa, ortalıqda bu müzakirələrin getdiyi istisna deyil. Ümumiyyətlə, hörmətli Hikmət Hacıyevin İsrail səfəri kifayət qədər mötəbər və əhəmiyyətli idi. Netanyahu ilə görüş də sübut etdi ki, əlaqələrimiz hansı səviyyədə inkişafdadır”.

Professor hesab edir ki, ona görə də İsrail ABŞ-nin müttəfiqi olaraq dost gördüyü Azərbaycan üçün bu qərarın ləğvi istiqamətində Tramp administrasiyası ilə diplomatik kanallarla danışıqlara gedə bilər: “Üstəlik, ”907-ci düzəliş”in qüvvədə saxlanması əhəmiyyətsizdir. Əvvəla, o qərar düşmənçilik idi. İşğala məruz qalan ölkəyə yardım etmək əvəzinə ona sanksiya tətbiq etmək ermənilərə dəstək sayılır. İkincisi, Azərbaycan torpaqlarını azad edib və biz silah alqı-satqısını ən yüksək səviyyədə həyata keçirik. Eyni zamanda, Ermənistanla sülh danışıqları davam etdirilir. ABŞ bu qərarı ləğv edərək sülhə töhfə verməlidir. Hərçənd Bayden dövründə İrəvanla imzalanan xartiya, erməni hərbçilərin Almaniyadakı ABŞ bazasında təlimlər keçməsi göstərir ki, Vaşinqton müdafiə sahəsində bu ölkəni yetərincə dəstəkləyir”.

Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri Çingiz Qənizadə də ümid edir ki, ABŞ və İsrail Azərbaycanın strateji əhəmiyyətini layiqincə qiymətləndirəcək. Hüquq müdafiəçisi hesab edir ki, qəbul edilən qərar olduqca ədalətsizdir və bu günə qədər də ləğv edilməməsi ikiqat haqsızlıq, qərəzli münasibətin göstəricisidir: “Azərbaycan bu nifrətə son qoyulmasını tələb edir. Məhz nifrətin və düşmənçiliyin nümunəsidir ki, həmin sanksiya qüvvədən düşməyib. Biz Tramp administrasiyasının və Konqresin buna son qoyacağını gözləyirik. Sadəcə, Amerikadakı erməni lobbisinin və Konqresdəki demokratların təsirləri hələ də qalmaqdadır. Bax, bu mənada düzəlişin ləğvi qərarının olacağı haqda tərəddüd edirəm. Bütün hallarda, bu addım atılmaqla ABŞ-Azərbaycan münasibətlərində yeni bir mərhələ başlana bilər. Bundan əlavə, münaqişə keçmişdə qalıb, bu gün sülh danışıqları irəliləyir, Amerikanın bu qərarı ləğv etməməsi olduqca məntiqsizdir”.

Qeyd edək ki, “907-ci düzəliş” 1992-ci ildə ABŞ Konqresi tərəfindən “Azadlığa dəstək haqqında” akta əlavə edilən və Azərbaycana ABŞ-nin birbaşa dövlət yardımını qadağan edən düzəlişdir. Erməni lobbisinin təşəbbüsü ilə qəbul edilib. Bu qadağa Azərbaycanı iqtisadi və siyasi sabitliyi asanlaşdırmaq üçün ABŞ hökumətindən birbaşa yardım almayan yeganə postsovet dövlətinə çevirib. Senat 24 oktyabr 2001-ci ildə akta ABŞ Prezidentinə 907-ci düzəlişdən imtina etmək imkanını təmin edən düzəlişi qəbul edib. Bayden düzəlişin qəbulunda fəal rol oynayıb və dəfələrlə onun ləğvinə qarşı çıxıb. Öz-özlüyündə 907-də göstərilən yardımın, dəstəyin miqdarı o qədər cüzidir ki, Azərbaycan üçün o heç nədir. Onun heç bir əhəmiyyəti yoxdur. Amma rəmzi olaraq bu ABŞ-nin öz maraqlarına, dünyada, xüsusilə də Cənubi Qafqaz regionunda roluna, mövcudluğuna qarşı mənfi təsir edən ən utancverici qanunlardan biridir. Yeri gəlmişkən, Tramp prezident vəzifəsinin icrasına başladığı ilk gündə 100 sərəncam imzalanıb. O cümlədən, Baydenin imzaladığı 78 sərəncamı ləğv edib, ABŞ-ın 60-a yaxın yardım proqramının fəaliyyətini 90 günə dayandırıb. Tramp sensasiyalar gətirən dövlət başçısıdır və fəaliyyətə başladığı ilk gündə imzaladığı sənədlərlə ABŞ tarixində bir ilk yaratmış oldu. Azərbaycan Baydenin dövründə 907-ci düzəlişin müddətinin əsassız şəkildə artırılması və qərəzli yanaşmalarla üzləşib. ABŞ-da yeni siyasi hakimiyyətin fəaliyyətə başlaması bu əssasız düzəlişin də ləğv edilməsi ilə bağlı ümidlər yaradır. Əslində Tramp müharibələri və münaqişələri sonlandıracaq dövlət başçısı kimi gəlib. Bu baxımdan ölkəmizə qarşı ABŞ-ın qərəzli və ikili standartlı yanaşmalarda da dəyişikliyin olacağı gözlənilməndir.

❑ **Emil SALAMOĞLU, “Yeni Müsavat”**

## “Rusiya nüfuzu olan qlobal gücdür” - Rubio



**Rusiya və ABŞ Ər-Riyadda sanksiyaların ləğvi məsələsini müzakirə etməyib, müzakirələr hələ bu mərhələyə çatmayıb. “Yeni Müsavat” xəbər verir ki, bunu ABŞ dövlət katibi Marko Rubio jurnalist Ketrin Herricə müsahibəsində deyib. “Rusiya və ABŞ ərazi məsələlərini müzakirə etməyib, görüşün məqsədi fərqli idi.**

ABŞ-ın xoşuna gəlsə də, gəlməsə də, Rusiya əsas regionlarda nüfuzu olan qlobal güc olaraq qalır. ABŞ Rusiyanın nüvə potensialını nəzərdən qaçıra bilməz, Moskva ilə dialoq lazımdır. Bayden dövründə ABŞ Rusiya ilə kontaktı itirdi, bu hətta soyuq müharibənin qızğın çağında belə olmamışdı. Tramp bəzi hallarda haqlı olaraq Zelenskidən narazıdır. Tramp-Putin görüşü razılaşma üzrə irəliləyişdən asılıdır”, - o bildirib.

## Netanyahu əməliyyat keçirmək əmri verdi



**İsrailin Baş naziri Benyamin Netanyahu Təl-Əviv ətrafında avtobuslarda törədilən silsilə partlayışlardan sonra Fələstin Muxtariyyətində böyük əks-terror əməliyyatı keçirməyi əmr edib. Bu barədə İsrail Baş nazirinin ofisi məlumat yayıb. Netanyahu həmçinin təhlükəsizlik qüvvələrinə İsrail şəhərlərində gələcək mümkün hücumlara qarşı qabaqlayıcı tədbirləri gücləndirməyi əmr edib.**

## ABŞ BMT-dən çıxır - Qanun layihəsi təqdim edildi



**ABŞ Konqresinin Respublikaçılar Partiyasından olan üzvləri ölkənin Birləşmiş Millətlər Təşkilatından çıxmasını və qurumun maliyyələşdirilməsinin dayandırılmasını nəzərdə tutan qanun layihəsini müzakirəyə təqdim etməyə hazırlaşır. Bu barədə “FOX NEWS” xəbər yayıb.**

Senator Mayk Linin müəllifi olduğu layihə təqdim edildikdən sonra ölkə təşkilatın tərkibindən çıxmaqla yanaşı, həm də maliyyələşməni tamamilə dayandıracaq. Bu arada, hakim partiyadan olan senatorlar bəyanat verərək, təşkilatın ABŞ-nin maraqlarına cavab vermədiyini açıqlayıb.

YENİ MÜSAVAT
N 34 (8644) 22 fevral 2025

# Kərə yağının qiyməti "əl yandırır" - kilosu 34 manata...

## Əməkdaşımız marketlərdə müşahidələr aparıb; ekspert isə bahalaşmanın səbəblərinə aydınlıq gətirdi

**Son aylarda Azərbaycanda kərə yağı qiymətlərində artım müşahidə olunur. Dövlət Statistika Komitəsinin məlumatına görə, 2024-cü ilin yanvar ayında yerli kərə yağının 1 kiloqramının orta pərakəndə satış qiyməti 18,91 manat idisə, may ayında bu rəqəm 19,36 manata yüksələrək 2,3% artım göstərib.**

Eyni dövrdə idxal kərə yağının qiyməti isə 19,53 manatdan 19,79 manata qalxaraq 1,3% artım olub. "Yeni Müsavat"ın əməkdaşı bir neçə marketdə olub, qiymətlərlə maraqlanıb. Qeyd edək ki, Bakıda kərə yağı qiymətləri markaya, çəkisinə və satış nöqtəsinə görə












dəyişir. Nizami rayonunda yerləşən supermarketlərin birində qiymətləri öyrənirik. Misal üçün:

"President" yağı (1 kq, 82%) - 34 AZN

Türkiyə istehsalı "Pınar" yağı (1 kq) - 28.55 AZN

Almaniya istehsalı olan "Gerda" (1 kq) isə 27.50 AZN

"Best Cow" yağı (1 kq) - 23.19 AZN

"Westgold" (1 kq) - 23.90 AZN

Zellandiyanın "Colden Crown" yağı (1 kq) - 22.90 AZN

Belarusun "BelMas" (1 kq) yağı - 22.90 AZN

"Maslo Litovskoe" (1 kq) - 21.99 AZN

"Zellandiya" yağı (1 kq) - 21.50 AZN

"Golden Crown" yağı (1 kq) - 17.90 AZN

"Belorusskoe" (1 kq) - 20.99 AZN

"Tulçinka" (1 kq) - 9.28 AZN-ə satışa qoyulub.

Göründüyü kimi, marketlərdə qiymətlər ötən aylara nisbətən xeyli artıb. Alıcılar deyir ki, qiymətlər demək olar ki, hər gün bahalaşır. Bizimlə söhbətdə Bakı sakini Zərifə Məmmədovanın sözlərinə görə, ötən ay aldığı yağın qiyməti üç dəfə artıb: "Baxın bu, "BelMas" yağını ötən aylarda 19 manata alırdım, indi 23 manata olub. Mədəm xəstədir, hər yağı yeyə bilmirəm, ucuz yağ yeyən kimi ziyanın çəkirəm. Bu yağa öyrəşmişəm, amma az sayda gətirilir, özü də baha qiymətə. Pulumuz elə yağa çatır".

Ziyafət adlı alıcı da qiymətlərin baha olmasından şikayətləndi: "Dünən aldığımız məhsulu bu gün başqa qiymətdə görürük, belə şey olar. Bütün malların qiyməti qalxıb, amma yağın qiymətinə çata bilməz. Ən ucuz kərə yağları belə bahalaşıb. Nə edək, yaşamayaq?!"

Yeri gəlmişkən, bazarda yerli istehsalçılar və fərdi satıcılar tərəfindən təklif olunan təbii nehrə yağları da mövcuddur. Onların qiymətləri keyfiyyətə və satıcıya görə dəyişə bilər. Amma mütəxəssislərə görə nehrə yadı adı altında satılan bu yağlar da əsil deyil, işbazlar buna da əl ataraq, insanları aldadırlar.

İqtisadçı ekspert Xalid Kərimli bizimlə söhbətdə deyib ki, kərə yağının bahalaşmasını Avropada heyvandarlıqda məhsuldarlığın azalması və dünya bazarında süd məhsullarının qiymətinin artması ilə əlaqələndirir: "Azərbaycanda bir çox istehsalçılar xammalı xaricdən idxal etdikləri üçün, qlobal qiymət dəyişiklikləri yerli bazara da təsir edir. Bundan əlavə, ölkədə südlük istiqamətli heyvanların sayının tələbatı tam ödəməməsi və iqlim dəyişiklikləri kimi amillər də qiymət artımına səbəb olan digər faktorlardır". Ekspertə görə, keçən il 14 ay ardıcıl olaraq dünyada yağ qiymətlərində, ağartı məhsullarının qiymətlərində bahalaşma müşahidə edilib: "Yağ məhsulları ölkəmizə əsasən üç istiqamətdən idxal olunur. Birinci istiqamət Okeaniya bölgəsidir - Yeni Zelandiya və Avstraliyadan gətirilir. Orada heyvandarlıq yaxşı inkişaf edib. İkinci istiqamət isə MDB məkanıdır - Rusiya və Belarus. Üçüncü istiqamət isə Qərbi Avropa ölkələridir - Fransa, Niderlanddır. Yəni, hər üç istiqamətdə dünyada yağ qiymətlərinin bahalaşması müşahidə olundu və təbii ki, bu, bizim bazarlara da təsir göstərdi. Dünyada qiymətlər niyə bahalaşdı? Çünki tələbat çox idi. Hazırda isə stabilləşmə var. Amma bu bahalaşma uzun müddət, noyabrdan etibarən bir ildən çox davam etdi və qlobal səviyyədə təsirini göstərdi. Buna görə də bizim bazara da təsir etdi".

Ekspertə görə 2024-cü ilin sentyabr ayında idxal olunan kərə yağının 1 kiloqramının orta gömrük dəyəri 5,6 dollar (təxminən 9,5 manat) olsa da, pərakəndə satış şəbəkələrində bu məhsulun qiyməti 20,9 manata qədər yüksəlmişdir. Bu, idxal qiymətləri ilə satış qiymətləri arasında əhəmiyyətli fərqin olduğunu göstərir.

Noyabr ayında isə kərə yağının qiymətində əlavə artım qeydə alınıb. Belə ki, oktyabrın sonlarında bir kiloqramı 21,99 manata satılan "Belarus" kərə yağı, dekabr ayında 23,95 manata qədər bahalaşıb. Bu, bir ay ərzində təxminən 10% qiymət artımı deməkdir. Ümumiyyətlə, kərə yağı qiymətlərinin artması həm qlobal bazarlardakı dəyişikliklər, həm də yerli istehsal və idxal xərclərinin yüksəlməsi ilə əlaqədardır.

Sosioloq Elçin Bayramlının isə kərə yağı ilə bağlı fikri diqqət çəkir: "Zirzəmidə hazırladıqları naməlum mənşəli yağların üzərinə Rusiya, Belarus markalarının adlarını yazıb, Kremlin, Minskin şəkillərini yapışdırıb sırıyırlar camaata. Camaat da elə bilir 14-15 manata Belarus və ya Rusiya kərə yağı alır. Halbuki Belarus yağı Bakıdakı öz rəsmi dükanlarında 25 manatdır. Yalnız bağlamanın arxasında xırda hərfləri oxuyan adamlar başa düşür ki, bu əslində Böyükşorda, filan dalanda, ya da Abşeron rayonunun Məhəmmədi kəndində fiziki şəxs filankəs tərəfindən hazırlanıb. Bu adamların ana dilimizə tüpürməsi, əcnəbi sözlərlə insanları aldatması bir yana qalsın, bəs palma və ya marqarindən düzəldilmiş bu trans yağları yeyib xərcəngə və sair ağır xəstəliklərə tutulan adamları kim müalicə edəcək? Əlbəttə ki, dövlət. Deməli, bunlar həm dövlətə zərbə vurur, həm əhaliyə. Bir aidiyyəti orqan da yoxdur ki, bunlarla məşğul ola. Qida bazarında tam anarxiya və özbaşınalıqdır. Yadda saxlayın-marketlərdə təbii qida adına heç nə yoxdur".

**❑ Afaq MİRAYİQ,**
**Fotolar müəllifindir**
**"Yeni Müsavat"**

## Sumqayıtda bir nəfərin 20 min manatı mənimsənilib

**Sumqayıt şəhəri və Bakının Xətai rayonunda dələduzluq və oğurluqda şübhəli bilinən şəxslər saxlanılıb. Sumqayıt şəhəri ərazisində bir nəfərin dələduzluğa məruz qalması barədə polisə məlumat daxil olub. Sumqayıt ŞPİ 3-cü Polis Bölməsi əməkdaşlarının keçirdikləri tədbirlərlə əməli törətməkdə şübhəli bilinən 54 yaşlı Ə.Abdullayev müəyyən edilərək saxlanılıb.**

Araşdırmalarla həmin şəxsin zərərçəkənin etibarından sui-istifadə edərək onunla şərikli biznes quracağı barədə yalan vədlər verdiyi və onun 20000 manat pul vəsaitini dələduzluq yolu ilə ələ keçirdiyi məlum olub. Bundan başqa, Xətai rayonu ərazisində bir nəfərin bank kartından 7300 manatını oğurlamaqda şübhəli bilinən 36 yaşlı T.Abbasovun saxlanılması da polis əməkdaşları tərəfindən təmin edilib. Araşdırmalar aparılır.

## Gəncə sakinindən tapança götürüldü

**Dəmir Yolu Nəqliyyatında Polis İdarəsinin Gəncə Xətt Polis Şöbəsinin əməkdaşlarının həyata keçirdikləri tədbirlə qanunsuz olaraq odlu silah-sursat saxlayan, əvvəllər dəfələrlə məhkum olunmuş K. Qasımov Dəliməmmədli Dəmiryolu Stansiyasında saxlanılıb.**

Teleqrafın yerli bürosu xəbər verir ki, onun üzərinə baxış keçirilən zaman bir ədəd "Makarov" tapançası, daraq və patronlar aşkarlanıb. Faktla bağlı cinayət işi başlanılıb, araşdırmalar davam etdirilir.

## Söyüşə görə bir yumruq vurdu, 3 il həbs cəzası aldı

**Bakı Ağır Cinayətlər Məhkəməsində qəsdən sağlamlığa ağır zərər vurmada təqsirləndirilən Murad Cabbarovun (soyadı şərti) cinayət işi üzrə məhkəmə istintaqı başa çatıb. Pravda.az-ın əldə etdiyi məlumata görə, hakim Aygün Qurbanovanın sədrliyi ilə keçirilən prosesdə hökm oxunub.**

Məhkəmənin hökmü o, 3 il müddətinə azadlıqdan məhrum edilib. İttihama görə, hadisə 16 may 2024-cü il tarixdə, saat 20:30 radələrində Bakı şəhəri, Xəzər rayonu, Sergey Yesenin küçəsində yerləşən "Abşeron" sanatoriyasının həyətində qeydə alınıb. Belə ki, Murad Cabbarovla xalası oğlu, zərərçəkmiş İsmayıl Quliyevin (soyadı şərti) arasında şəxsi münasibətlər zəminində mübahisə yaranıb. Bu zaman zərərçəkmiş ona qarşı alçaldıcı ifadə işlədib. Sonra Murad yumruqla xalası oğlunun çənə nahiyəsinə vuraraq, onu yerə yıxıb. Hadisədən sonra Murad Cabbarov saxlanılıb və barəsində həbs qətimkan tədbiri seçilib.

YENİ MÜSAVAT
N 34 (8644) 22 fevral 2025

# Rusiyanın hakimiyyət dairələri panikada

## Ekspert: "Ölkənin maliyyə sistemi böhran içindədir"

**"Rusiyanın ideoloji təbliğatının əsas komponentlərindən biri iqtisadi sabitlik və maliyyə müstəqilliyi illüziyasının yaradılmasıdır. Kreml həm öz əhalisini, həm də beynəlxalq ictimaiyyəti Rusiya iqtisadiyyatının sanksiyalara, müharibəyə və beynəlxalq təcrid vəziyyətinə baxmayaraq böyüməyə davam etdiyinə inandırmağa çalışır. Ancaq Rusiya Bankının faktiki iqtisadi addımlarına nəzər salsaq, vəziyyət tamamilə fərqli görünür". Ayna.az xəbər verir ki, bu sözləri Ukrayna Milli Strateji Araşdırmalar İnstitutunun Xarici Siyasət Araşdırmaları Mərkəzinin baş məsləhətçisi İvan Us Rusiya iqtisadiyyatının vəziyyəti barədə yazdığı analitik məqalədə qeyd edib.**

Ekspert qeyd edib ki, bu yaxınlarda Rusiyanın "Teleqram" kanallarında 2025-2027-ci illər üçün Rusiyanın pul siyasətinə dəyişikliklər layihəsi dərc edilib: "Bu, ölkənin maliyyə sisteminin böhran içində olduğunu, dövlətin onu ayaqda saxlamaq üçün məcburi tədbirlərə əl atmağa məcbur olduğunu göstərir. Bu tədbirlər bazar iqtisadiyyatı prinsiplərinə zidd olmaqla yanaşı, həm də birbaşa hakimiyyət dairələrində panikadan xəbər verir. Çünki birincisi, Rusiya Mərkəzi Bankı maliyyə xidmətləri, xüsusən də pul köçürmələri və ödəniş infrastrukturundan istifadə tariflərini əhəmiyyətli dərəcədə artırmağı planlaşdırır. Bu qərarın rəsmi əsaslandırılması əməliyyat xərclərinin artması və sistemin modernləşdirilməsinin zəruriliyidir. Maliyyə xidmətlərinin qiymətinin artması adi vətəndaşları və biznesləri vuracaq və onları hökumətin səhv hesablamalarına görə ödəməyə məcbur edəcək. İkincisi, sənəddə xaricə pul köçürmələri ilə bağlı ciddi məhdudiyyətlər var. Güman edilir ki, fiziki və hüquqi şəxslər beynəlxalq köçürmələri yalnız müəyyən edilmiş limitlər çərçivəsində həyata keçirə biləcək, bəzi əməliyyatlar isə ümumiyyətlə qadağan olunacaq. Bu, birbaşa sübutdur ki, Rusiya rejimi kapital axınından qorxur və hər vasitə ilə pulu ölkə daxilində saxlamağa çalışır. Sual olunur, iqtisadiyyat stabildirsə, o zaman belə məhdudiyyətləri niyə tətbiq etmək lazımdır?.

Digər mühüm məqam bankların və maliyyə qurumlarının aktivlərinin dövlət istiqrazları ilə məcburi şəkildə dəyişdirilməsidir. Bu o deməkdir ki, biznes kreditləşməsinə və ya digər investisiya layihələrinə yönəldilə bilən vəsaitlərin bir hissəsi dövlət borcunun maliyyələşdirilməsinə yönəldiləcək. Əslində hökumət maliyyə sektorunu müharibəni və büdcə kəsirini maliyyələşdirməyə məcbur edir. Bu addım yalnız iqtisadi durğunluğu artıracaq, kredit imkanlarını azaldacaq və bank sistemi üçün əlavə risklər yaradacaq", - Us əlavə edib.



Onun sözlərinə görə, real problemləri gizlətmək üçün Rusiya Bankı bildirir ki, iqtisadiyyatı guya sabitləşdirmək üçün əsas faiz dərəcəsi dəyişməz qalacaq: "Bununla belə, praktikada bu, biznes və əhali arasında çaxnaşmadan qaçmaq cəhdidir. Çünki dərəcənin istənilən kəskin artması iqtisadiyyatda daha böyük problemlərə işarə ola bilər. Beləliklə, Rusiya Bankının yeni tədbirlərinin təhlili ölkədə iqtisadi vəziyyətin elan edilmiş sabitlikdən uzaq olduğunu göstərir. Dövlət artan tariflər şəklində yeni vergilər tətbiq edir, vətəndaşların maliyyə azadlığını məhdudlaşdırır, bankları dövlət borc öhdəliklərini almağa məcbur edir. Belə siyasət uzunmüddətli ola bilməz və zaman keçdikcə onun nəticələri Rusiyanın özü üçün daha da dağıdıcı olacaq. Bunlar Ukraynanın beynəlxalq ictimaiyyətə çatdırmalı olduğu faktlardır. Kiyev daxili maliyyə böhranı vəziyyətində olan Rusiyanın "iqtisadi gücü" mifini məhv etməlidir", - ekspert fikrini yekunlaşdırıb.

❑ **"Yeni Müsavat"**

# Avropa Trampa qarşı ordu hazırlığında

## Ümumavropa Silahlı Qüvvələrinin konturları daha da aydınlaşır

**Avropa İttifaqının (Aİ) cəmiyyətin təhlükəsizliyini və müdafiəsini öz əlinə götürməsinin vaxtı çatıb. Bunu Avropa Komissiyasının (AK) rəhbəri Ursula fon der Lyayen Litvada keçirdiyi mətbuat konfransında deyib.**

"İnfrastrukturun qorunmasından əlavə, təhlükəsizliyimizi və müdafiəmizi öz əlimizə götürməyin vaxtıdır və çoxdan gecikmişik. NATO bizim müdafiəmizin təməli olaraq qalır. Ancaq aydındır ki, bizə Ümumavropa müdafiəsi lazımdır", - deyə o bildirib.




Bundan sonra Münhen Təhlükəsizlik Konfransında çıxışı zamanı Ukrayna Prezidenti Volodimir Zelenski bəyan edib ki, Avropa Silahlı Qüvvələrinin yaradılması lazımdır: "Onun yaradılması vaxtı artıq gəlib çatıb. Mən Avropaya inanıram. Və inanmalıyam. Mən sizi - özünüz və Avropa üçün - Avropa xalqları, millətləriniz, evləriniz, övladlarınız və ümumi gələcəyimiz üçün hərəkətə keçməyə çağırıram".

Onun sözlərinə görə, Avropa özünü təmin etməli və gücünü Ukrayna ilə birləşdirməlidir: "İndi digər dövlətlərin dəstəklədiyi ukraynalı müdafiəçilər Rusiyanı geridə saxlayırlar. Amma indi biz ABŞ-ın onu təhdid edən məsələlərdə Avropaya "yox" deməsi ehtimalını istisna edə bilmərik. Bir çox liderlər Avropanın öz silahlı qüvvələrinə - Avropa Ordusuna malik olmasının zəruriliyindən danışdılar. İnanıram ki, bunun vaxt gəlib çatıb. Avropa Silahlı Qüvvələri yaradılmalıdır".

NATO-nun baş katibi Mark Rütte isə çıxış edərək, belə Silahlı Qüvvələrin NATO-nu əvəz etməyəcəyini söyləyib: "Bu, bizim tərəfdaşlığımıza Avropanın töhfəsini Amerikanın töhfəsinə bərabərləşdirməkdən ibarətdir. Diplomatiyaya gəldikdə isə eyni yanaşmaya ehtiyacımız var - sülh naminə birgə işləmək".

Maraqlıdır, indi Aİ-nin özünün vahid ordusunun yaradılmasının daha real və inandırıcı göründüyü məqam yetişibmi? Bu ideya indi Avropa İttifaqı üçün daha böyük təhlükəsizliyin təmin edilməsində müsbət rol oynaya bilər, yoxsa NATO-nun mövcud gücləri ilə hansısa şəkildə ziddiyyət təşkil edir?

Tanınmış avropalı ekspert, Nikolay Kopernik adına Torun Universitetinin Siyasi elmlər və beynəlxalq tədqiqatlar fakültəsinin professoru Roman Bekker ayna.az-a deyib ki, Avropa İttifaqının səlahiyyətlərinin, o cümlədən müdafiə məsələlərinin əhəmiyyətli dərəcədə genişləndirilməsi ilə bağlı ideyalar yarım əsrdən artıqdır ki, var: "Onlar artıq 1960-cı illərdə, Avropa İqtisadi Birliyinin hələ mövcud olduğu vaxtlarda yaranıb. Bu ideyaların uğursuzluğu zərurətin olmaması ilə izah olunurdu. NATO Sovet təcavüzü təhlükəsinə qarşı kifayət qədər qoruyucu sipər kimi görünürdü, buna o qədər də böyük ehtiyac yox idi. Bu gün vəziyyət "soyuq müharibə" dövründəkindən daha gözlənilməzdir. Rusiya 2014-cü ildə Ukrayna ilə əsassız müharibəyə başladı və üç il əvvəl bunu bu dövlətin və xalqın müstəqilliyini tamamilə məhv etməyə yönəlmiş çoxşaxəli cəbhə hücumuna çevirdi.

Trampın ikinci müddətinin əvvəlindəki siyasəti təəccüblü fikirlər və qeyri-adi tələblərlə doludur. Trampın gözlənilməzliyi və Rusiyanın təcavüzkar hərbi maşını Avropanı əvvəllər lazımsız görünən ssenarilər yaratmağa məcbur edir. Ona görə də real ehtiyac yaranana qədər belə bir qərar verilməyəcək.

Bununla belə, ideya haqqında yüksək səslə danışmaq və onu sakitcə hazırlamaq o deməkdir ki, belə bir qərar çox tez qəbul oluna və daha da sürətlə həyata keçirilə bilər".

Estoniyalı politoloq Pieter Taym da deyib ki, Avropa ordusunun yaradılması ideyası yeni deyil: "Bu mövzuda müzakirələr aparılarkən, bunun NATO-nun ideya və strukturlarına hər hansı bir şəkildə zərər verməsi və ya ona qarşı olması barədə heç vaxt danışılmayıb. Bu ideyanın həyata keçirilməsi məhz ona görə təxirə salınıb ki, NATO artıq mövcuddur və Alyans öz üzvlərinin təhlükəsizliyini təmin etməyə qadirdir.

Yaxşı, indi ABŞ Prezidenti və vitse-prezidentinin çıxışları fonunda bütün Avropa ölkələrinin nəhayət ayılmalarının vaxtı gəldi (məsələn, Baltikyanı ölkələr tərəfindən çoxdan çağırıldığı kimi) və ən qısa müddətdə ABŞ-ın müdafiə qabiliyyətinə malik olan köməyi olmadan bütün lazımi tədbirləri görməlidir.

Əlavə etmək istərdim ki, bu konkret mövzu kontekstində və hazırkı vəziyyətlə bağlı mən Avropa dedikdə təkcə Aİ və NATO ölkələrini nəzərdə tutmuram. Mən məşhur rusiyalı politoloq Piontkovskinin Ukrayna Silahlı Qüvvələrinin quru qoşunları ilə bütün Avropa ölkələrinin Hərbi Hava Qüvvələrinin birləşdirilməsinin zəruriliyi barədə fikrini tam dəstəkləyirəm. Bu, Rusiya Silahlı Qüvvələrinin Ukrayna ərazisində çox sürətli məğlubiyyətini təmin edə bilər".

YENİ MÜSAVAT
N 34 (8644) 22 fevral 2025



# DİM 121 vəzifə yeri üçün müsahibə elan etdi

**21 fevral 2025-ci il tarixində 46 dövlət orqanında inzibati vəzifələrin 4-7-ci təsnifatına uyğun olan 121 vəzifənin tutulması məqsədilə daxili müsahibə elanı verilib. Daxili müsahibə elan edilən vəzifələrin 5-i inzibati vəzifələrin dördüncü təsnifatına, 28-i beşinci təsnifatına, 30-u altıncı təsnifatına və 58-i yeddinci təsnifatına aiddir. Qeyd edək ki, daxili müsahibəyə çıxarılması üçün dövlət orqanları arasında ən çox vakant vəzifə Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (15 vəzifə) tərəfindən təqdim olunub.**

Eyni zamanda, daxili müsahibə elan edilən vəzifələrdən 39-u Naxçıvan Muxtar Respublikasının 8 dövlət orqanı, 45-i isə 28 yerli icra hakimiyyəti orqanı tərəfindən təqdim edilib. Qanunvericiliyin tələblərinə uyğun olaraq, daxili müsahibə üzrə sənəd qəbulu elektron qaydada həyata keçirilir. Daxili müsahibə üzrə sənəd qəbulunun elektron qaydada həyata keçirilməsi vətəndaşların rahatlığının təmin edilməsi, vaxt itkisinin və maliyyə xərclərinin qarşısının alınması, habelə Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzi tərəfindən göstərilən dövlət xidmətlərinin daha əlçatan olmasına imkan verir.

Daxili müsahibədə aşağıdakı şəxslər iştirak hüququna malikdir: Vakant vəzifəni təqdim etmiş dövlət orqanında inzibati vəzifələrdə qulluq keçən və inzibati vəzifələrin təsnifatına uyğun ixtisas dərəcəsi olan dövlət qulluqçuları;

Dövlət orqanının ləğvi, dövlət qulluqçularının sayının və ya ştatlarının ixtisarı ilə əlaqədar daxili müsahibə elan edilən dövlət orqanında ehtiyat kadr kimi saxlanılan şəxslər; Daxili müsahibədə iştirak etmək istəyən namizədlər 21 fevral - 7 mart (saat 18:00-dək) tarixlərində Mərkəzin internet portalında "Dövlət qulluğu üzrə müraciət Forması"nı doldurmaqla qeydiyyatdan keçməlidirlər.



# Məhkəmələr də süni intellektdən istifadə edəcək

**Bir çox ölkələrdə ədalət mühakiməsinin həyata keçirilməsində süni intellekt tətbiq olunur. Bunu Konstitusiya Məhkəməsinin sədri Fərhad Abdullayev "Yüksəliş" müsabiqəsi tərəfindən keçirilən "Gələcəyə baxış: Yeni reallıqlar şəraitində suverenliyin möhkəmləndirilməsi" Forumunda iştirakçıların suallarını cavablandırarkən deyib. Onun sözlərinə görə, gələcəkdə məhkəmədə bundan istifadə olunması istisna deyil:**

"Yəqin ona hansısa sual veriləcək. Amma cavabı sadəcə rəy şəklində ola bilər. Süni intellekt həyatın bütün sahələrinə sirayət edəcək. Amma bütün qərarların arxasında canlı insan dayanır. Burada hisslər, insani keyfiyyətlər, vicdan əsas rol oynayır. Bu məsuliyyətin arxasında insan dayanır. "Sofiya" xanım bunu bacara bilməz". Prezident Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin müdiri Gündüz Kərimov isə Azərbaycanda süni intellektin inkişaf konsepsiyasının təsdiqlənməsinin gözlənildiyini bildirib.

Milli Məclis sədrinin müavini Ziyafət Əsgərov isə vurğulayıb ki, süni intellekt və kibercinayətkarlıq suverenliyə təhlükə törədən amillərdəndir: "Süni intellektlə bağlı qanun layihəsinin hazırlanması da planlaşdırılır. Bu baxımdan İKT sahəsini və məsələnin hüquqi aspektini yaxşı bilən kadrlar lazımdır".



# Nazirin "adlara yenidən baxmalıyıq" təklifinə reaksiya

## **Ekspert:** "Azərbaycanda ali təhsil müəssisələrinin adlandırılması məsələsində islahatlara ehtiyac var, amma..."

**"30-35 yaşlı alimlər bu dərəcəni rəsmi status kimi saxlayırlar və elmi fəaliyyət göstərmirlər". Elm və təhsil naziri Emin Əmrullayev AMEA-nın ümumi yığıncağında çıxışı zamanı bildirib ki, qurumlara "universitet", "akademiya", "institut" kimi adların verilməsinə yenidən baxılacaq.**

O əlavə edib ki, Azərbaycanın bəzi ali təhsil müəssisələri çox spesifik, ixtisaslı fəaliyyət göstərir. Bir qurumun adını institutdan dəyişib universitet edəndə ölkədə elm inkişaf etmiş olmur. Nazirin sözlərinə görə, elmi tədqiqat müəssisələrinin fəaliyyətinin qiymətləndirilməsi üçün Ali Attestasiya Komissiyası ilə birlikdə müəyyən addımlar atılıb.

O, müəssisələr tərəfindən Elm və Təhsil Nazirliyinə təqdim edilən faktiki qəbul sayının (doktorant qəbuluna görə) müdafiə edənlərin sayından çox olduğunu vurğulayıb: "Elmi dərəcə ilə elmi fəaliyyət arasındakı əlaqəni ciddi şəkildə monitorinq etməyə başlamışıq. Elmi dərəcəsi olan şəxslərin statusu yox, sonrakı fəaliyyəti daha çox diqqətimizdədir. 30-35 yaşında elmi adı alan alim bütün ömrü boyu bu addan istifadə etməməlidir. Bütün bunlar artıq razılaşdırma mərhələsində olan yeni dövlət proqramında öz əksini tapacaq".

Nazir "adlara təzədən baxmalıyıq" deyəndə konkret nəyi nəzərdə tutur? Alternativ nə ola bilər? Ümumiyyətlə, ölkədə elmin, təhsilin inkişafına təkan verəcək əsas şərt nədir?

Mövzu ilə bağlı "Yeni Müsavat"a danışan təhsil eksperti Kamran Əsədov bildirib ki, məsələ təkcə universitetlərin adlarının dəyişdirilməsi ilə məhdudlaşmır. Eyni zamanda, Azərbaycanda ali təhsilin və elmin strukturlaşdırılması, elmi dərəcələrin real elmi fəaliyyətlə uzlaşdırılması və akademik sistemin effektivliyinin artırılması ilə bağlı daha geniş problemləri gündəmə gətirir: "Azərbaycanda ali təhsil müəssisələrinin adlandırılması məsələsində islahatlara ehtiyac var. Müxtəlif dövrlərdə institutların universitetə çevrilməsi və akademiyaların yaradılması baş verib. Lakin bu dəyişikliklərin hər biri həqiqətən elmi və akademik inkişafla paralel şəkildə aparılıbsa, bu, müsbət dəyərləndirilməlidir. Əks halda, sadəcə ad dəyişiklikləri elmin və təhsilin inkişafına təsir etmədən, formal bir prosesə çevriləcək. Nazirin "adlara təzədən baxmalıyıq" fikri konkret olaraq institutların, akademiyaların və universitetlərin funksional təyinatına uyğunlaşdırılmasını nəzərdə tutur. Müasir dünyada ali təhsil müəssisələrinin adları və statusları onların fəaliyyət sahələrinə, akademik proqramlarının səviyyəsinə və elmi-tədqiqat fəaliyyətlərinə əsasən müəyyən edilir. Universitetlər genişmiqyaslı akademik və elmi fəaliyyətlə məşğul olan, fundamental və tətbiqi tədqiqatlar aparan və bir çox ixtisaslar üzrə ali təhsil verən qurumlardır. Akademiyalar isə adətən spesifik sahələr üzrə daha ixtisaslaşmış ali təhsil və tədqiqat mərkəzləridir. İnstitutlar isə əsasən daha spesifik və dar sahələrə yönəlmiş, elmi-tədqiqat fəaliyyəti aparan qurumlardır".

Ekspertin sözlərinə görə, Azərbaycanda bəzi institutların universitet adını alması bəzən onların real akademik və elmi potensialı ilə üst-üstə düşmür. Bu halda, adın dəyişdirilməsi həmin ali təhsil müəssisəsinin fəaliyyətinə müsbət təsir etməklə yanaşı, elmi və akademik göstəricilərində real dəyişiklik yaratmır: "Məsələn, əgər bir institutun professor-müəllim heyəti və elmi-tədqiqat imkanları universitet səviyyəsində deyilsə, onun adını dəyişmək sadəcə formallıqdan ibarət olur. Bunun əvəzinə, ali təhsil müəssisələrinin inkişaf planları hazırlanmalı, onların akademik və elmi-tədqiqat imkanları artırılmalı və sonra statusları uyğunlaşdırılmalıdır.

Dünya təcrübəsinə baxsaq, ali təhsil sisteminin strukturlaşdırılması müxtəlif modellər üzrə aparılır. Məsələn, ABŞ-də universitetlər, kolleclər və institutlar fərqli statuslara malikdir və hər birinin öz spesifik fəaliyyəti var. Avropa ölkələrində də ali təhsil müəssisələri universitetlər, politexnik institutlar və tədqiqat mərkəzləri kimi təsnif olunur. Almaniyada "Universitat" və "Fachhochschule" (təcrübi universitetlər) fərqləndirilir və onların tədqiqat və tədris profilləri bir-birindən ayrıdır. Bu modellər ali təhsil sistemində şəffaflığı təmin edir və hər bir ali məktəbin real funksiyalarına uyğun status almasını təmin edir.

Azərbaycanda ali təhsil və elmi tədqiqat sisteminin inkişafına təkan verəcək əsas şərtlərdən biri də elmi dərəcələrin yalnız nominal status deyil, real elmi fəaliyyətlə əlaqələndirilməsidir. Nazir qeyd edir ki, 30-35 yaşında elmi adı alan şəxslər bəzən bu dərəcəni yalnız rəsmi status kimi saxlayırlar və elmi fəaliyyət göstərmirlər. Bu, elmi potensialın effektiv istifadəsini əngəlləyir və akademik sistemin inkişafına mənfi təsir göstərir.

Bu problemi həll etmək üçün elmi tədqiqat institutlarının fəaliyyətinə daha ciddi nəzarət mexanizmləri tətbiq olunmalı, doktorantura və elmi dərəcə alma prosesi real tədqiqat fəaliyyətinə əsaslanmalıdır. Bir çox ölkələrdə elmi dərəcə alan şəxslər üçün müəyyən tələblər qoyulur - məsələn, müəyyən sayda beynəlxalq səviyyəli məqalə dərc etdirmək, elmi-tədqiqat layihələrində iştirak etmək və akademik fəaliyyətini davam etdirmək. Azərbaycanda da elmi dərəcələrin verilməsi ilə bağlı bu cür tələblər sərtləşdirilməli və elmi fəaliyyətin monitorinqi gücləndirilməlidir".

K. Əsədov bildirir ki, alternativ yanaşmalardan biri də elmi tədqiqat institutlarının universitetlərə inteqrasiyasını təmin etməkdir: "Bir çox inkişaf etmiş ölkələrdə elmi tədqiqat mərkəzləri universitetlərin tərkibində fəaliyyət göstərir və beləliklə, elmi fəaliyyətlə akademik tədris bir-birini tamamlayır. Azərbaycanda isə bəzi elmi institutlar ali təhsil müəssisələrindən ayrıdır və bu, akademik tədqiqatların effektivliyini azalda bilər. Əgər elmi institutlar universitetlərlə birləşdirilsə və daha güclü tədqiqat bazaları formalaşdırılsa, bu, ölkədə elmi inkişafı daha sürətli edə bilər.

Universitetlərin, akademiyaların və institutların fəaliyyətini real göstəricilərə əsasən tənzimləmək, onların tədqiqat və akademik fəaliyyətlərini gücləndirmək, elmi dərəcələrin nominal statusdan çıxaraq real elmi fəaliyyətə əsaslanmasını təmin etmək ölkədə elmi inkişaf üçün əsas şərtlərdən biridir. Əgər bu islahatlar həyata keçirilərsə, Azərbaycan ali təhsil sistemi daha effektiv və rəqabətqabiliyyətli hala gələ bilər".

❑ **Şahanə RƏHİMLİ, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 34 (8644) 22 fevral 2025

# Dìqqət! İrandan gələn bu məhsullar təhlükəlìdìr

## Yeni qaydaya görə, bu malları satanları 10 ilə qədər həbs cəzası gözləyir - ekspert rəyi

**İrandan idxal olunan turşu lavaş, ərik qurusu, şirin çörək (keks) istehlaka yararsız olub. Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin (AQTA) müfəttişləri tərəfindən götürülmüş nümunələrin laborator müayinəsi nəticəsində məhsul partiyalarının normativ sənədlərin tələblərinə cavab vermədiyi aşkarlanıb. Faktla bağlı müvafiq qərar qəbul olunaraq məhsul partiyaları məhv edilib.**

Həmçinin İrandan idxal olunan şokoladlı konfet və kreker məhsullarında uyğunsuzluq aşkarlanıb. Fiziki şəxs Nuru Yaqubovun İrandan idxal etdiyi “Satareh Nadi Qida maddələri Sənaye Qrupu” şirkətinə məxsus ümumi çəkisi 2 ton “Nadi Crasia Salty Cracker” əmtəə nişanlı kreker (11.11.2024-10.11.2025-ci il istehsal tarixli partiya) və ümumi çəkisi 1659 kq “Nadi Ramineh” əmtəə nişanlı şokoladlı konfet (25.11.2024-24.11.2025-ci il istehsal tarixli partiya) məhsulu partiyalarından Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin əməkdaşları tərəfindən nümunələr götürülərək laborator müayinələrə cəlb edilib.



Sınaq nəticəsinə əsasən, məhsulların tərkibində genetik modifikasiya olunmuş orqanizmlər (GMO) aşkarlanıb. Aşkar olunmuş faktla bağlı qanunvericiliyə uyğun olaraq məhsul partiyaları məhv edilib.

Bəs hazırda marketlərdə, bazarlarda İran məhsulları kifayət qədərdir. Onların keyfiyyətinə nə dərəcədə güvənmək olar? Əlavə hansı addımlar atılmalıdır?

Məlumat üçün bildirək ki, GMO məhsullar yetişdirilərkən müxtəlif heyvanların, orqanizmlərin genlərindən istifadə edilir. Yəni məhsula ona yad olan orqanizmlərdən genlər köçürülür. Hazırda 100-dən çox kənd təsərrüfatı bitkilərinin genetik modifikasiya olunmuş analoqlar yaradılıb. Belə ərzaq məhsulları isə sonsuzluq, habelə xərçəng, böyrək çatışmazlığı, qanazlığı kimi qorxulu xəstəliklər yaradır, immun sistemini məhv edir.

İrandan başqa, dünyada GMO məhsullarının istehsalçıları var ki, onlardan biri Braziliyadır. Bu ölkədən soya, qarğıdalı və pambıq kimi GMO məhsulları idxal edilir. Braziliya GMO məhsullarını geniş miqyasda istehsal edir və bu məhsullar dünya bazarlarına ixrac olunur. ABŞ-də də GMO məhsullarının istehsalı geniş yayılıb. Bu ölkədən Azərbaycanın bazarına GMO qarğıdalı, soya, kartof və digər məhsullar idxal edildiyini deyənlər var. Argentina da GMO məhsullarını istehsal edən əsas ölkələrdən biridir. Bu ölkədən GMO soya və qarğıdalı məhsulları ölkələrə idxal edilir. Kanada da GMO soya və qarğıdalı istehsal edən ölkələrdən biridir.

Azərbaycanda GMO məhsullarının idxalı mövcud olsa da, qanunvericilik bu məsələyə nəzarət etmək üçün müəyyən tələblər qoyub. Məsələn, bu məhsulların etiketlənməsi tələb olunur və istehlakçılara məhsulun GMO olub-olmaması barədə məlumat verilməlidir. Həmçinin, Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi GMO məhsullarının idxalını və satışını izləyir və uyğun olmayan məhsulların bazara buraxılmasının qarşısını alır.

İstehlakçıların hüquqlarının müdafiəçisi Eyyub Hüseynov mövzu ilə bağlı “Yeni Müsavat”a fikirini bölüşüb: “İllərdir ki, İrandan Azərbaycana gətirilən yoxlanması zəruri olan ayrı-ayrı məhsul növləri ilə bağlı məsələləri qaldırmışıq. İllər öncə İrandan gətirilən bitkiçilik məhsullarının genetik modifikasiyaya uğraması ilə bağlı fikirlər yaymışıq. Təəssüf ki, genetik modifikasiya ilə bağlı məsələ Allahın iradəsinə zidd olsa da, İranda bu işlər aparılır və onlar bunu yüksək texnologiya əsasında həyata keçirməkləri ilə fəxr edirlər. İrandan gətirilən iri ölçülü kartoflar, badımcanlar, tumu olmayan bibərlər, eləcə də toxumsuz qarpızlar genetik modifikasiyaya məruz qalmış kənd təsərrüfatı məhsullarıdır. Bunlar ətraflı araşdırılmalıdır. Qeyd edim ki, AQTA qidanın təhlükəsizliyini təmin etməyə çalışır. Amma nə rus, nə ingilis, nə də Azərbaycan ədəbiyyatında ”təhlükəsiz qida” nədir, bu suala cavab tapa bilməzsiniz. Ancaq qida təhlükəsizliyi sisteminin izahını tapa bilərsiniz. Yəni, qida zəncirinin bütün mərhələlərində insan həyatı üçün təhlükə törədən elementlərin olub-olmaması məsələsini araşdıra bilərsiniz. AQTA qidanın təhlükəsizliyini təmin edir, lakin keyfiyyət məsələsini təmin etmir. Təhlükəsiz qida belə keyfiyyətsiz ola bilər. Keyfiyyətsiz qida isə insanları, necə deyərlər, apteklərə və həkimlərə möhtac qoyar. Keyfiyyətsiz qida insan ömrünü qısaldar, insanları xəstəliklərə düçar edər. AQTA -nın bu sahədəki fəaliyyəti çox əhəmiyyətlidir. AQTA yalnız malların adını müəyyənləşdirməklə kifayətlənməməli, həm də partiyaları qeyd etməli, hansı mağazalarda satıldığını açıqlamalıdır ki, vəziyyət tam şəkildə aşkar olsun. Bu işlər mütəmadi olaraq aparılmalıdır".

Ekspert əlavə edib ki, AQTA-nın əsasnaməsində dəyişiklik olmalıdır: “Onlar öncədən xəbər vermədən yoxlama aparmaq imkanına malik olmalıdırlar. Təəssüf ki, belə bir imkanları yoxdur. Azərbaycan hökuməti biznes qurumları üçün toxunulmaz şərait yaradıb və qida sektorunda fəaliyyət göstərənlər isbu toxunulmazlıqdan sui-istifadə edərək istehlakçılara təhlükəli qidalar, o cümlədən İrandan gətirilən məhsulları satırlar. İllər boyu İrandan idxal olunan qidalarla bağlı ən ciddi problem məhsulların Azərbaycan dilində markalanmaması olub. Hətta buraxılma tarixi və yararlılıq müddəti kimi çox mühüm göstəricilər fars dilində yazılıb. Çox yaxşı haldır ki, hazırda İqtisadiyyat Nazirliyi yanında, Standartlaşdırma İnstitutunda qida məhsullarının markalanması standartı müzakirə olunur. Mən də ora təkliflər vermişəm. Bu standartlar qəbul edilərək hüquqi qüvvəyə mindikdən sonra markalanma işində də dəyişikliklər baş verəcək. Əgər bu standartlar təsdiqlənsə, məhsulun tərkibində genetik modifikasiya olunmuş elementlərin olub-olmaması etiketdə göstəriləcək. Çox sevindirici haldır ki, üç gün öncə Prezident İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi ilə bağlı sərəncam imzaladı. Həmin sərəncama əsasən, təhlükəli qida istehsal edən və ya satış məqsədilə istehsal edən şəxslər 10 ilə qədər həbs oluna bilərlər. Bunu həm qida istehsalı ilə məşğul olanlar, həm də idxalçılar bilməlidirlər ki, belə bir cəza dəyişikliyi var”.

❑ **Afaq MİRAYİQ, “Yeni Müsavat”**

# Səmamızda bu təyyarələr məhv ediləcək - Yeni qayda

## Hərbi ekspert yeni qərarın sərtləşməsinin hansı zərurətdən irəli gəldiyini açıqladı

**Məcburi qaydada yerə enmək barədə xüsusi tələblərə riayət etməyən, bortunda pozuntu törədilməsində təqsiri olmayan sərnişinlərin olması barədə düzgün məlumat olmayan və ya özünümüdafiə tələb edilən halda hava gəmisinin məhvinə icazə veriləcək. Bu, Nazirlər Kabinetinin “Dövlət sərhədini pozan hava gəmilərinə və uçuş aparatlarına qarşı hava hücumundan müdafiə qoşunlarının növbətçi qüvvə və döyüş texnikasının tətbiq edilməsi Qaydaları”nda etdiyi dəyişiklikdə əksini tapıb.**

Belə halda əvvəlcə xəbərdarlıq atəşi açılacaq.

Qeyd edək ki, indiyə qədər qüvvədə olan qaydaya əsasən, mülki hava gəmilərinə qarşı məhv atəşi açmağa bu hava gəmilərinin sərnişinsiz və hərəkətsiz ələ keçirilməsi barədə aerodromda məlumat olduqda icazə verilib. Belə halda da əvvəlcə xəbərdarlıq atəşi açılmalı idi.

Qaydanın sərtləşməsi hansı zərurətdən doğub?

Hərbi ekspert Rövşən Məhərrəmov “Yeni Müsavat”a deyib ki, ABŞ-da Donald Trampın hakimiyyətə gəlməsi ümumilikdə dünyada münasibətləri son həddə qədər gərginləşdirib: “Ukrayna müharibəsində Tramp hakimiyyətinin tutuduğu mövqe dövlətlərarası münasibətlərə də yansıyır. Ona görə də bütün dünyada əvvəlki razılaşmalara, qaydalara yenidən baxılmasını zəruri edir. Ötən ilin sonunda Azərbaycan Hava Yollarına məxsus sərnişin təyyarəsinin Çeçenstan səmasında vurulması, yaşadığımız faciə Azərbaycanı da həm də havadan müdafiə strategiyasına yenidən baxmağa vadar edir. Buna qədər ABŞ və bir sıra ölkələrdə bu qaydalar tətbiq olunurdu. Azərbaycanda da hava məkanını pozan, göyərtədə sərnişinlərin olması barədə yalan məlumat verən təyyarələrin vurulması bu baxımdan zəruruidir.

Təyyarələrin qaçırılması ilə müşahidə olunan terror hadisələri də dünyada dəfələrlə təkrar olunub. Bu baxımdan qabaqlayıcı addımların atılması zərurəti yaranıb. Buna görə də Nazirlər Kabineti “Dövlət sərhədini pozan hava gəmilərinə və uçuş aparatlarına qarşı hava hücumundan müdafiə qoşunlarının növbətçi qüvvə və döyüş texnikasının tətbiq edilməsi Qaydaları”nda etdiyi dəyişiklik olundu. Dövlət sərhəddi havadan, qurudan, dənizdən qorunmalıdır. Əgər hava məkanına hər hansı bir məlumat vermədən, xəbərdarlıq etmədən uçuş aparatı, təyyarə daxil olursa, havadan müdafiə qüvvələrinin xəbərdarlığına məhəl qoymursa və ya yalan məlumatlar verirsə, bu halda hava məkanını pozan istənilən obyekt məhv ediləcək".

Hərbi ekspert deyib ki, SSRİ dövründə Koreyaya məxsus təyyarə hava məkanını pozub və xəbədarlıqlara məhəl qoymadığından məhv edilmişdi: “1983-cü ildə Cənubi Koreyanın ”Korean Air" aviaşirkətinin "Boeing 747" təyyarəsi səhvən uçuş dəhlizindən 560 kilomter aralanmışdı və SSRİ hava məkanına daxil olmuşdu. Koreya sərnişin təyyarəsi sovet ərazisində məxfi hərbi obyektlərin üzərindən uçduğundan 4 qırıcı təyyarə havaya qaldırılmışdı. Koreya təyyarəsinin pilotları xəbərdarlıq atəşlərinə məhəl qoymamışdılar və nəticədə təyyarəyə birbaşa atəş açılmışdı. Baş vermiş insident nəticəsində 269 nəfər həlak olmuşdu. Belə insidentlər tarixdə az deyil və dövlətlər hava məkanlarını etibarlı şəkildə qorumaq üçün sərt addımlar atmaq məcburiyyətindədirlər. Azərbaycan da istisna deyil”.

❑ **E.MƏMMƏDƏLİYEV, “Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 34 (8644) 22 fevral 2025

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

**Gender, ailə və demoqrafiya məsələlərinin işıqlandırılması**

# Azərbaycanda qadınlar kişiləri niyə döyür? - səbəblər

## Araşdırmalara görə, ölkəmizdə bu cür zorakılıq hallarının baş verməsinin müxtəlif əsasları var

**Ötən il Azərbaycanda 58 kişi gender əsaslı zorakılığa məruz qalıb. Bu barədə məlumat Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin 2024-cü il üzrə hesabatında öz əksini tapıb. Bildirilib ki, 2024-cü ilin yanvar-dekabr aylarında 860 Gender əsaslı zorakılıqla bağlı Dəstək Xəttinə 330 müraciət daxil olub.**

Araşdırmalara görə, ölkəmizdə bu cür zorakılıq hallarının baş verməsinin müxtəlif əsasları var

Zorakılıqla bağlı müraciətlərin 58-i kişi, 272-si isə qadınlar tərəfindən edilib. Vurğulanıb ki, onlardan 205 nəfəri Bakıdan, 125-i isə regionlardan müraciət edib: "Bundan başqa, 137 evli, 140 subay, 53 boşanmış şəxsin Dövlət Komitəsinə müraciəti daxil olub. Həmin şəxslərdən 64-ü ali təhsilli, 177-si orta, 89-u isə təhsilsiz insanlardır. 77 nəfər 0-18 yaş aralığında, 145 nəfər 19-35, 80-i 36-55, 28 nəfəri isə 56+ yaş aralığında olan şəxslərdir".

Statistika onu göstərir ki, kişilərin son dövrlər zorakılığa məruz qalmaları barədə müraciətləri çoxalıb. Məsələn, 2023-cü ildə 38 nəfər kişi ailədə məişət zorakılığına məruz qalması ilə bağlı aidiyyəti quruma müraciət etmişdi. Ümumiyyətlə isə, son illərdə bütün dünyada kişilərə qarşı zorakılığın artan bir tendensiya göstərməsi, xüsusilə diqqət çəkir. BMT-nin araşdırmalarına əsasən, ailədaxili və məişət zorakılığında kişilərin qurban rolu get-gedə daha çox nəzərə çarpır. Zorakılığın bir neçə forması mövcuddur, bunlar arasında fiziki, psixi, iqtisadi və cinsi zorakılıq önə çıxır. Araşdırmalar göstərir ki, dünya üzrə kişilər, əvvəlki illərə nisbətən, daha çox qadın zorakılığına məruz qalır. Məsələn, ABŞ Ədliyyə Departamentinin məlumatına görə, əri tərəfindən döyülən hər 15 qadına qarşı qadın tərəfindən döyülən 8 kişi düşür. Həmçinin, qadınların ərləri ilə mübahisə zamanı daha çox bıçağa əl atdığı və öz partnyorlarına ağır xəsarətlər yetirdiyi bildirilir.

Rusiyada və ABŞ-da, hazırda həyat yoldaşını öldürən 100 kişiyə qarşı 75 qadın ərini öldürür. Ekspertlər, gələcəkdə bu nisbətin bərabərləşəcəyini proqnozlaşdırırlar. Böyük Britaniyada 2018-ci ildə keçirilən bir sorğuda, iştirakçıların 38%-i qadın və 24%-i kişi tərəf-müqabilinə fiziki şiddət tətbiq etdiklərini etiraf edib. Statistikaya görə, Keniyada, 40 milyon əhalisi olan ölkədə, 2,1 milyon kişi qadınlar tərəfindən fiziki və psixoloji zorakılığa məruz qalır. Burada qadınlar, ərlərini aldadır, ev işlərini görməyə və uşağa baxmağa məcbur edirlər.

Bir çox ölkələrdə artıq kişilərin hüquqlarını müdafiə edən komitələr və sığınacaqlar mövcuddur. Məsələn, Türkiyə, İsveçrə, ABŞ, Almaniya, Kanada və Niderland kimi ölkələrdə zorakılığa məruz qalan kişilər üçün xüsusi sığınacaqlar fəaliyyət göstərir. Kişilərə qarşı zorakılığın artma səbəbləri arasında isə, mütəxəssislər koronavirus pandemiyasının ardından sosial-iqtisadi və psixoloji gərginliklərin artdığını və bunun da daha çox aqressiyaya səbəb olduğunu qeyd edirlər. Bu gərginliklər, ailələrdə fiziki təzyiqlərin artmasına və bəzi kişilərin bu zorakılığın qurbanı olmasına yol açır. Bəs Azərbaycanda kişilər əsasən nə zaman zorakılığa məruz qalır?

Araşdırmalar göstərir ki, ölkəmizdə kişilər, müxtəlif səbəblərlə zorakılığa məruz qalır. Mütəxəssislər məişət zorakılığının əsasən kişilərin ailə həyatlarında müəyyən çatışmazlıqlar yaşaması ilə əlaqəli olduğunu bildirirlər. Ən çox rast gəlinən hallardan biri, kişinin ailə vəzifələrini yerinə yetirməməsi, evə qazanc gətirməməsi və buna görə də həyat yoldaşının narazılığına səbəb olmasıdır. Bu vəziyyət, qadının maddi və emosional ehtiyaclarının qarşılanmaması ilə nəticələnə bilər və zorakılıqla sonlanır. Eyni zamanda, qayınana və qayınatanın ailə həyatına müdaxiləsi, cütlüyün münasibətlərində gərginlik yarada bilər. Tərəflər arasında anlaşılmazlıq, qarşılıqlı hörmətin olmaması və yola getməmə də zorakılığa səbəb olan digər mühüm faktorlar sırasındadır. Bütün bu halların fonunda, əksər hallarda zorakılıq meydana çıxır və nəticədə boşanmalara qədər gedib çıxır.

Zorakılıq yalnız fiziki güc tətbiqi ilə məhdudlaşmır, həm də psixoloji zorakılıq formalarını alır. Araşdırmalar göstərir ki, xanımından psixoloji və ya emosional zorakılığa məruz qalan kişilər, çox vaxt uşaqlıqda və ya gənclikdə psixoloji problemlər yaşamış insanlardır. Onların öz hisslərini və ağrılarını ifadə etməkdə çətinlik çəkmələri, zamanla bu cür zorakılıqlara məruz qalma riskini artırır. Xüsusən, Azərbaycan mentalitetində kişilər ənənəvi olaraq öz duyğularını gizlətməyə çalışır, zəif olmağa, ağrıları və sıxıntıları bir kənara qoymağa üstünlük verirlər. Bu, onların psixoloji vəziyyətinin pisləşməsinə səbəb olur və daha sonra onların emosional yükünü artıraraq zorakılığa məruz qalmasına səbəb ola bilər.



Bəzən yaşlı kişilər də özlərini müdafiə edə bilmədikləri üçün daha gənc ailə üzvləri, hətta həyat yoldaşları və nəvələri tərəfindən fiziki zorakılığa məruz qalırlar. Yaşlıların zəif olması və enerjilərinin tükənməsi, onların bu vəziyyətlərə qarşı daha az müqavimət göstərə bilməsinə səbəb olur. Bu hallarda, yaşlı kişilərin təhqir və zorakılığa uğraması daha çox psixoloji təsirlər yaradır, çünki onlar bu vəziyyətdə özlərini təcrid edilmiş və tənha hiss edirlər. Son nəticədə, ölkəmizdə kişilərə qarşı zorakılığın müxtəlif səbəbləri olsa da, ümumilikdə, ailədaxili münasibətlərin zəifliyi, maddi və emosional problemlər və sosial psixoloji faktorlar bu zorakılığa təkan verən əsas amillərdir. Kişilər, xüsusən də Azərbaycan cəmiyyətində, öz duyğularını və psixoloji problemlərini gizlədərək daha çox bu cür zorakılığa məruz qalır və bu, onların şəxsi və sosial həyatlarında ciddi nəticələrə yol aça bilər.




# Sığınacağa yerləşmək üçün 4 nəfər müraciət edib

**Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin tabeliyində Sosial Xidmətlər Agentliyinin Həssas əhali qruplarından olan şəxslər üçün Sığınacaq və Sosial Reabilitasiya Müəssisəsinə əlverişsiz havaya görə 4 nəfər müraciət edib. Bu barədə Agentlikdən məlumat verilib.**

Qeyd olunub ki, son üç gündə müəssisəyə 4 müraciət qeydə alınıb: "Hazırda müəssisənin müxtəlif şöbələrində ümumilikdə 46 nəfər şəxsə xidmət göstərilir. Onlardan 32 kişi, 14 qadındır".

Xatırladaq ki, həmin müəssisə 2017-ci ildən fəaliyyət göstərir və ora qəbul olunanlar 6 ay (180 gün) ərzində müvafiq xidmətlərlə təmin olunurlar və bu müddətdə günlük olaraq qida normaları əsasında yemək, yaşayış yeri və geyimlə təmin edilirlər. Müəssisənin Müəyyən yaşayış yeri olmayan 18 yaşından yuxarı şəxslərin sosial reabilitasiyası şöbəsinə qəbul üçün vətəndaşlar müraciətlərini Sosial Xidmətlər Agentliyinin (012) 525 41 30 qaynar xətti, (050) 525 41 30 WhatsApp sosial platforması, eləcə də Agentliyin sosial media hesabları vasitəsilə ünvanlaya bilərlər.



# Xidməti evlər bu hallarda satıla bilər

**Zaman-zaman dövlət tərəfindən verilən xidməti evlərin satışının həyata keçirildiyinin şahidi oluruq. Bəs bu evlərin satışı hansı hallarda həyata keçirilə bilər? Məsələ ilə bağlı tribunainfo.az-a açıqlama verən daşınmaz əmlak eksperti Elnur Azadov bildirib ki, əgər həmin xidməti ev vətəndaşın mülkiyyətinə verilirsə və bununla həmin idarə arasında hər hansı bir məhdudlaşdırıcı müqavilə yoxdursa, bu zaman xidməti evin satışında heç bir problem yoxdur.**

Ekspertin sözlərinə görə, vətəndaş istədiyi kimi öz mülkiyyəti ilə Azərbaycan konstitusiyası və digər hüquqi normativlərə görə hərəkət edə bilər. Bəzi xidməti evlərə vaxtilə müddətli məhdudiyyət qoyurdular. 5-10 il ərzində ola bilər ki, saziş və müqavilə bağlanılırdı ki, xidməti evi satmaq mümkün olmurdu. Amma müəyyən müddət keçəndən sonra buna yol verilirdi.

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Xalidə GƏRAY

**AFFA yeni Azərbaycan milli futbol komandalarının yaradılmasını planlaşdırır. Qurumdan verilən məlumata görə, komandaların bu il fəaliyyətə başlaması gözlənilir. O sırada U-12 və U-14 komandaları da formalaşacaq. Bildirilir ki, məqsəd istedadlı futbolçuları gənc yaşlarından milli komandaya davamlı olaraq cəlb etmək, onları diqqət mərkəzində saxlamaq və karyeralarını inkişaf etdirməyə kömək etməkdir.**

# Futbolumuzda mühüm dönüş - Bu ildən...

## AFFA-nın qərarına fərqli baxışlar var; **deputat:** "AFFA adına kimin danışdığı, kimin nə addım atdığı bəlli deyil"



Yeniliklər milli futbolumuza nə vəd edir? Daha hansı işlər görülməlidir ki, legioner asılılığı minimuma ensin? Futbolla yaxından maraqlanan Böyük Quruluş Partiyasının sədri, deputat Fazil Mustafa yaranan suallar barədə indidən danışmağı tez hesab edir: "İndiyə qədər bu cür komandaların yaradılmasının, belə qərarların verilməsinin dəfələrlə şahidi olmuşuq. Amma bu indi praktikada reallaşandan sonra buna münasibət bildirmək olar. Yarandı, kimsə iş yeri açıldı, kimisə bura gətirib yerləşdirdilər, bununla məsələ bitmir ki? İlk öncəliklə görək niyyət burada nədir. Ümumiyyətlə, maraqlı nə düşünülüb? Məncə, belə bir məsələdə hər hansı bir şəkildə praktik vəziyyəti görmədən qərar qəbul etmək olmaz. Ona görə də, bu addımın müsbət nəticələri olarsa, ona baxmaq lazımdır. Yoxsa yaradıldı, plan, strategiya qəbul olundu, futbolda inkişaf düşünüldü, bunlar yol deyil ki? Faktiki olaraq, AFFA-nın nə etmək istədiyi hələ heç kimə məlum deyil. Konkret strategiya ilə bağlı cəmiyyəti inandıracaq hansısa bir fikir söyləyən yoxdur.

Ümumiyyətlə, AFFA adına kimin danışdığı, kimin nə addım atdığı bəlli deyil. O baxımdan bu məsələlər həllini tapmalıdır ki, bilinsin, bunu kim gerçəkləşdirəcək? Atdığı addımlarda nə dərəcədə ciddidir? Bunların hamısı birlikdə dəqiqləşdirilməlidir. Bu baxımdan bir fikir söyləmək üçün çox erkəndir. Hələ bu addımın faydalı olub-olmayacağını söyləmək açığı bir az tezdir. Ümid edək ki, faydalı olsun. Biz də bunu istəyirik. Amma bunu kim faydalı edə biləcəkdir? Hər halda bunun üzərində düşünməliyik".

Tanınmış idman yazarı Natiq Muxtarlı çox vacib problemləri qabartdı. O bu problemlər həll olunmadan belə qərarları mənasız sayır: "Bu adi bir formal qərardır. Azərbaycanın problemi bu deyil axı? 12 və ya 14 yaşlılardan ibarət milli komanda yaratmaqla nə dəyişəcək? U-15 gedib hamıya uduzub gəlir, həmçinin U-17, 19 və 21-lər. Eləcə də, U-12 və 14-lər gedib hamıya uduzub gələcək. Bunlar problemi bir kənarda qoyub başqa işlərlə məşğuldurlar. Burada əsas problemlərdən biri odur ki, Azərbaycanda futbolçu yetişdirmək üçün kadr yoxdur. İnfrastruktur yox dərəcəsindədir. Süni örtüklü meydança üzərində futbolçu yetişdirmək olmaz. Bunu həkimlər də, mütəxəssislər də deyirlər ki, o uşaqlar şikəst böyüyürlər. Həmin uşaqların 17-18 yaşlarında dizlərində problemlər yaranır. Bunun da səbəbi süni örtüklü meydançada oynamalarıdır. Bir sözlə futbolçu yetişdirmək üçün bizdə şərait, kadr yoxdur. Bunlar öncəliklə bu məsələni həll etməlidirlər. Uşaq məktəblərinin məvacibləri artırılmalıdır ki, karyerasını bitirən Azərbaycan futbolçuları gəlib uşaqlarla məşğul olsunlar. Xaricdən məşqçi də gətirmək olardı, yaxud da xaricə adamlar göndərmək olardı. Amma bunların heç biri olmadı. Əvəzində uşaq məktəbinə bədən tərbiyəsi institutunu bitirənlər gəlir. Hansı ki, 60 balla zorla o məktəbə daxil olublar. Futbol şöbəsini bitirənlər gəlib hansısa klubda 300 manata işləyirlər. Başlayırlar, valideynlərdən rüşvət almağa. Hansı valideyn pul verirsə, onun övladını oynadır, pul verməyən kənarda saxlanılır.

Yeni istedadlı uşağın valideynin pulu yoxdursa, o kənarda qalacaq. Beləcə də istedadlar məhv olub gedir. Azərbaycan futbolu rüşvətin içərisində boğulur, xüsusən də uşaq futbolu. Dünyanın heç bir yerində 12 yaşlı uşaqdan nəticə tələb etmirlər. O yığmalara kimləri çağırırlar? O futbolçu öz qohumunu çağırtdırır, yaxud AFFA rəhbərliyi öz qohumunu tapşırır. Bununla da qohumbazlıqla 12-13 nəfər uşağı bir yerə yığırlar. İstedadlı uşaqları klublardan aparmırlar. Nəticədə Türkmənistan kimi ölkələrə çıxıb uduzurlar, hətta Tacikistana belə məğlub olurlar. SSRİ vaxtı futbolda bizdən geri qalan respublikalardan danışıram.

Azərbaycanın qəsəbə və kəndlərinə getmək lazımdır. Uşaq futbolunu inkişaf etdirmək üçün hansı tədbirləri görmək lazımdır, öncəliklə bu barədə düşünülməlidir. Amma bunlar nə edirlər? Oturublar kabinetlərində, qərar verməklə məşğuldurlar. Kabinet generalları olublar. İndi futbolu necə inkişaf etdirmək olar? Get bir Masallıya, Lənkərana, Qubaya, Qusara ,Mingəçevirə, Tovuza və.s bax. Bu rayonlar Azərbaycanın futbol bazasıdır. Gedin baxın görün o uşaqların oynamağa topları, geyməyə geyimləri, butsları varmı. Oturub isti kabinetlərdən boş-boş qərarlar verməklə hara getmək olar? 2010-cu ildə Gürcüstan Futbol Federasiyasının baş katibindən müsahibə almışdıq. Demişdi ki, Gürcüstanda 156 futbol məktəbi var. Azərbaycandan Gürcüstan bir neçə dəfə kiçikdir. Demişdi ki, həmin kənd və qəsəbələrdəki futbolçu uşaqlar barədə hər həftə masamın üzərinə hesabat qoyulur. Ona görə də, gürcü futbolçular dünyanın adlı-sanlı klublarda iştirak edirlər. Bakının ortasında 4-5 süni örtüklü meydançada uşaq futbolunu inkişaf etdirmək olmaz. Bunları kim edəcək? Qəbul etdiyiniz strategiyanı kim yerinə yetirəcək? Kadrlar varmı? Bər-bəzəkli strategiya qəbul etmək deyil. İldə bir dəfə AFFA prezidenti AFFA-nın binasına gələcək və İcraiyyə Komitəsinin iclası keçirəcək, bununla ölkədə futbol inkişaf edəcək? Cəfəngiyyatdır, mümkün deyil, olmayacaq. AFFA-nın baş katibi rayon-rayon, kənd-kənd, hətta ev-ev gəzməlidir. Bunlar olmadığı sürədə lap U-9, nə bilim U-10 qəbul etsinlər, Azərbaycan futbolunda heç nə dəyişən deyil".

İdman mütəxəssisi Kənan Məstəliyev bu addımı alqışlayır: "Ümumiyyətlə, son zamanlar AFFA rəhbərliyi doğru işlər, vacib qərarlar verməklə məşğuldur. Klub sayının artırılması, Liqada idman prinsipinin qorunmasını bura aid etmək olar. U-12 və U-14 yığmalarının yaradılmasını müsbət amil kimi qiymətləndirə bilərik. Bu yaşlarda futbolun inkişafının təməl prinsiplərindən biri beynəlxalq oyun təcrübəsidir. Uşaqlar nə qədər çox belə matçlara çıxsa, nə qədər müxtəlif futbol məktəblərinin nümayəndələri ilə üz-üzə gələrək təcrübə toplasa, daha tez təkminləşər, daha çox artırarlar. Bildiyimiz kimi, klublarımızın heç də hamısı bunu özləri edəcək maliyyə imkanına malik deyil. Ona görə xeyli sayda gənc və yeniyetmə futbolçu yuxarıda qeyd etdiyimiz təcrübələri yaşaya bilmir, inkişafdan geri qalır. U-12 və U-14 yığmalarının təsisi bu problemin həllinə kömək edə bilər.

Uşaqlar AFFA-nın dəstəyilə xaricdə müxtəlif beynəlxalq turnirlərə qatıla biləcək, təcrübə qazanacaq, xarici klubların "radar"ına daha tez düşə bilərək daha yaxşı karyera qurmaq şansı əldə edəcəklər. Odur ki, federasiyanın bu addımını dəstəkləyirəm. Ölkəmizdə uşaq futbolunun inkişafı və legioner asılılığının azaldılması üçün akademiyaların qurulması vacibdir. Klublar buna diqqət ayırmalı, əsaslı işləri qulpundan yapışmalıdırlar. İki bahalı legionerin pulu ilə 10 uşaq komandası saxlamaq, gələcəyin uğurlu təməlini qoymaq, ölkə futbolunun gələcəyinə dəstək vermək olar. Həm klublar, həm də AFFA bu məsələdə fəal olmalıdılar. Qəbul edilən strategiyada bu var, geniş əhatə edilib. Qalır onun reallaşdırılması".

❑ **Cavanşir ABBASLI, "Yeni Müsavat"**

# UEFA-nın reytinqi: Azərbaycan klubları neçəncidir?

**UEFA Avropa kuboklarının pley-off mərhələsinin cavab oyunlarından sonra klubların reytinq cədvəlini yeniləyib. Qol.az xəbər verir ki, siyahıya əvvəlkitək "Real" başçılıq edir. Madrid klubunun 140.000 xalı var. "Mançester Siti" 2-ci (137.750), "Bavariya" 3-cüdür (128.750).**

Son 5 mövsümün göstəricilərinə əsasən hazırlanan reytinqdə Azərbaycan 7 klubla təmsil olunur ki, bu sırada ən yaxşı göstəriciyə malik komandamız Qarabağ"dır. Ağdam təmsilçisi 32.000 xalla 66-cı yeri tutur.

Ümumilikdə Azərbaycan klublarının reytinq sıralaması aşağıda qeyd edilən kimidir:

66. "Qarabağ" - 32.000
187. "Neftçi" - 8.000
310. "Zirə" - 4.000
311. "Sabah" - 4.000
315. "Sumqayıt" - 4.000
329. "Qəbələ" - 3.000
330. "Şamaxı" - 2.500

Azərbaycan ölkə olaraq isə UEFA sıralamasında əvvəlkitək 28-ci yeri tutur.




# Gimnastımız dünya kubokunun finalında

**Azərbaycan gimnastı Nikita Simonov Almaniyanın Kotbus şəhərində keçirilən idman gimnastikası üzrə dünya kubokunda uğurlu çıxış edir. Bu barədə Azərbaycan Gimnastika Federasiyası məlumat yayıb. Gimnastımız yarışda halqalarla hərəkətlər üzrə yüksək nəticə göstərərək final mərhələsinə vəsiqə qazanıb. Qeyd edək ki, turnir fevralın 23-də yekunlaşacaq.**

YENİ MÜSAVAT

Son səhifə

N 34 (8644) 22 fevral 2025

## Bunları bilirsinizmi?

* Dəvəquşlarının gözləri beyinlərindən böyükdür.
* Dünyada ən kiçik ordu Monako kyazlığındadır. Həmin ordu 2 zabit və 60 əsgərdən ibarətdir.
* Ən uzun hörüklərin sahibi XIX əsrdə İngiltərədə yaşamış Ovens adlı bir qadın idi. Onun hörüklərinin uzunluğu 2m. 50 sm. olmuşdur.
* İnsanlar bütün ömrü boyunca 20 kiloqram toz udurlar.
* Kanada da yerin cazibə qüvvəsi dünyanın digər əraziləri ilə müqayisə də daha azdır. Bu səbədən Kanadalılar özlərini tərəzidə çəkərkən öz normal çəkilərindən az çəkidə çıxırlar.
* Hindistanda bığ saxlayan Polislər daha ciddi göründükləri üçün digər Polislərdən 5% çox maaş alırlar.
* İnsan bədənindəki damarlarln uzunluğu təxminən 96 min kilometrdir.
* 1 kq kökəlmək üçün bədənimiz 20 km yeni damar əmələ gətirir.
* Dünya da ən uzun hakimiyətfə qalmış sülalə Osmanlı sülaləsidir. (623 il)
* Qarışqa yuvalarının girişi hər zaman şimala tərəf olur.
* Vaxtının çoxunu musuqi dinləyərək keçirən insanlar daha çox depresif insanlar olurlar.
* Shakespeare 23 apreldə doğulmuş və 23 apreldə vəfat etmişdir.
* Norveçin şimalında hər yay 14 həfə gecə-gündüz günəşli keçir.
* Timsahlar dillərini çölə çıxara bilmirlər.
* Fransızlar ən nəzakətli xalq sayılır. Bir yazıçı bunu sübut etmək üçün yazır:"Bu yaxınlarda Parisin köhnə bir qəbiristanlığında üzərində yazılar olan bir başdaşı tapdım. Orada yazılmışdır:"Mənim istirahət yerimə yaxınlaşanda ayağa qalxıb sizi salamlamadığım üçün üzr istəyirəm".
* Ağcaqanadların 47 ədəd dişi olur.

Fevral

## Kişilərdə impotensiya riskini azaldan sadə hərəkət açıqlandı



Sürətli yerimə kişilərdə impotensiya riskini azaldır. Bu barədə Vençjou Ənənəvi Çin və Qərb Tibb Xəstəxanasının (Çin) alimlərinin apardıqları tədqiqatdan sonra məlum olub. Araşdırmanın nəticələri "The Journal of Sexual Medicine" jurnalında dərc olunub. İlk mərhələdə elm adamları könüllülərin yerimə sürəti və fiziki sağlamlıqları haqqında məlumat toplayıblar. Əldə edilən məlumatlar "Mendel randomizasiyası" üsulu ilə təhlil edilib. Tədqiqatçılar yüksək sürətlə yeriməyin damarların sağlamlığını yaxşılaşdırdığını və sağlam çəki saxlamağa kömək etdiyini bildiriblər. Bu amillər kişilərin sağlamlığına qoruyucu təsir göstərir - onlarda erektil funksiyanı yaxşılaşdırır və testosteron (kişi cinsi hormonu) çatışmazlığına səbəb olan şəkərli diabetin inkişaf riskini azaldır.

## Ölüm anı ilə bağlı maraqlı elmi kəşf: Quranda da var imiş

**Elm adamları ölüm anında beyin fəaliyyəti ilə bağlı maraqlı tapıntılar əldə ediblər.**

Yeni araşdırmada həyati funksiyalar dayandıqdan sonra ortaya çıxan güclü enerji dalğası ölmək üzrə olan xəstələrin beyninə yerləşdirilən sensorlar sayəsində qeydə alınıb.

ABŞ-ın Arizona Universitetindən Stüart Hamerofun elektroensefaloqramma (EEQ) sensorları ilə apardığı tədqiqatda ölüm anında beyin dalğalarında gözlənilməz bir hərəkətin olduğu bildirilir.

Mütəxəssislər deyirlər ki, bu enerji partlayışı qan təzyiqi və ürək döyüntüsü tamamilə dayandıqda üzə çıxır. Hamerofa görə, qamma sinxronizasiyası adlanan beyin dalğası fəaliyyəti ölümdən 30-90 saniyə əvvəl davam edir. Bu durumun şüurun daha dərin olduğuna dair ipucları verdiyini iddia edən amerikalı alim beyin funksiyaları dayanmış kimi görünsə belə, şüurun davam edə biləcəyini söyləyir.

Bu enerji partlayışının ölümdən sonra şüurun bədəndən ayrılması əlaməti ola biləcəyini deyən mütəxəssislərin sözlərinə görə, bu kəşf ölüm və şüurla bağlı elmi müzakirələrə yeni ölçü qazandıracaq.

Ölüm anında beyində müşahidə edilən bu qeyri-adi fəaliyyətin mənasını tam anlamaq üçün daha çox araşdırmaya ehtiyac olduğu deyilərkən, alimlər bu sahədə işlərini davam etdirəcəklərini qeyd edirlər.

İslam dininin müqəddəs kitabı Quranda ruhun bədəni tərk etməsi ilə bağlı çoxlu ayələr var. Ölüm anında ruhun bədəndən çıxmasını təsvir edən "Vaqiə" surəsinin 83-87-ci ayələrində o anda ruhun boğaza gəldiyi və insanların bu anı çarəsizcə seyr etdiyi vurğulanır.

"Zümər" surəsinin 42-ci ayəsində deyilir ki, ruh təkcə ölüm zamanı deyil, həm də yuxu zamanı bədəni tərk edə bilər. Ayrıca, "Ənam" surəsinin 93-cü ayəsində zalımların ruhlarını dəhşət içində təhvil verəcəkləri deyilərkən, "Nisa" surəsinin 97-ci ayəsində ölüm anında mələklərin haqq-hesab çəkəcəkləri vurğulanır.

## Ağrı hissini nəyin artırdığı ortaya çıxdı



**Ağrı hissi çox vaxt onun gözlənilməzliyindən asılıdır. Bu barədə Yaponiyanın Tsukuba Universitetinin alimlərinin apardıqları tədqiqatdan məlum olub. Araşdırmanın nəticələri "Cognition" elmi jurnalında dərc olunub. Təcrübə zamanı iştirakçılara termal ağrı verilib, eyni anda onlara virtual reallıqda görüntülər göstərilib. Məlum olub ki, gözləntilər reallıqla üst-üstə düşmədikdə, ağrı daha güclü hiss olunur. Alimlər, həmçinin qeyd ediblər ki, ağrı ilə bağlı qeyri-müəyyənlik və narahatlıq, onun daha pis hiss olunmasına səbəb ola bilər. Bu, xüsusilə xroniki ağrıdan əziyyət çəkənlər üçün belədir - gözləntilərlə reallıq arasındakı uyğunsuzluq əlavə iztirablara yol açır.**

Tədqiqatçılar hesab edirlər ki, bu fərqi azaltmaq yeni müalicə üsullarının açarı ola bilər. Onların sözlərinə görə, ağrının necə qəbul edildiyini başa düşmək, xəstələrə xəsarətlərdən və xroniki şərtlərdən daha tez sağalmağa kömək edə biləcək müalicələrin inkişafına səbəb ola bilər.



## Şri-Lankada timsah kişini şəhərin ortasında parçaladı

**Şri-Lankada timsah kişini parçalayıb. İnsident Kalutara şəhərində baş verib. Məlumata görə, bədbəxt hadisə kişi şəhərin görməli yerlərindən biri olan Kalutara körpüsünün yaxınlığındakı çaya yaxınlaşanda qeydə alınıb: "Birdən timsah suyun səthinə çıxıb. O, yerli sakini tutaraq, sürüyüb suyun altına aparıb. Şahidlər kömək etməyə çalışıblar və polis çağırıblar. Hadisə yerinə gələn polis əməkdaşları isə kişinin yalnız sənədlərinin olduğu çantasını aşkarlayıblar".**

## Reper Dreyk konsertində hamilə fanatına 30 min dollar verdi

**Pərəstişkarlarına pul paylamaqla tanınan dünya şöhrətli reper Dreyk (Drake) daha bir fanatını sevindirib. 38 yaşlı ifaçı Avstraliyanın Sidney şəhərində verdiyi konsert zamanı hamilə pərəstişkarına pul verib. Kanadalı reper konsertində "20 həftəlik hamiləyəm" pankartını qaldıran Tina Hendersen adlı fanatını gördükdən sonra onu VIP lojaya dəvət edib. Dreyk daha sonra onu səhnəyə dəvət edərək 30 min dollar verib.**

## Alimlər heyrətdə: Xərçəng hüceyrələrinin sağ qalmaq üçün hansı yola "baş vurduqları" öyrənildi



**Xərçəng hüceyrələrinin yaşaması üçün gözlənilməz mexanizm aşkar edilib. Onlar ətraf mühitdən qida maddələri almaq üçün qüvvələrini birləşdirirlər. Nyu-York Universitetinin amerikalı alimləri tərəfindən aparılan araşdırma "Nature" elmi jurnalında dərc olunub. Komanda xərçəng hüceyrələrinin zülalları (oliqopeptidləri) amin turşularına parçalayan CNDP2 adlı bir ferment ifraz etdiyini aşkar edib. Bu, bütün şişlər üçün ümumi qida fondu yaradır. Bu proses amin turşusu çatışmazlığı şəraitində xüsusilə təsirlidir.**

Əvvəllər xərçəng hüceyrələrinin yalnız resurslar üçün rəqabət apardığına inanılırdı. İndi isə aydın olur ki, onlar da şişin sağ qalmasına kömək etmək üçün birlikdə çalışırlar.

Siçanlar üzərində aparılan təcrübə zamanı tədqiqatçılar CNDP2-ni bloklayan bestatin dərmanından istifadə ediblər. Bu, xərçəng hüceyrələrini oliqopeptidlərlə qidalanma qabiliyyətindən məhrum edib, beləliklə onlar məhv olub. Bestatinin birləşməsi və az amin turşulu pəhriz şiş böyüməsinin qarşısını bir az da alıb. Mütəxəssislər bu kəşfin xərçəng müalicəsinin effektivliyini artıra biləcəyini deyirlər.

## Bananı bu vaxta qədər səhv yeyirmişik - Doğrusu necədir?

**Banan dünyada ən çox istehlak edilən meyvələrdən biridir, amma bir çox insan onu səhv yeyir və qiymətli qida maddələrini atır. Mütəxəssislər bildirirlər ki, bananın içindəki nazik sap hissələri, yəni floem paketləri, sağlamlıq üçün böyük faydalar təqdim edir.**

Milli.Az xəbər verir ki, MiDr. Manuel Viso, bu hissələrin bananın "qan damarları" kimi fəaliyyət göstərdiyini və yüksək miqdarda antioksidantlar, vitaminlər, minerallar və antiinflamatuar komponentlər ehtiva etdiyini açıqlayıb.

Həmçinin, bananın bu hissələrində kalium, maqnezium və serotonin tərkibi yüksəkdir, bu da əhval-ruhiyyəni yaxşılaşdırır.

Bundan əlavə, albedon, yəni banan qabığının iç hissəsi, insan orqanizminə əlavə faydalar verə bilər. Qidalanma mütəxəssisi Nicholas D. Gillitt bu hissənin lif və həzmə kömək edən vacib karbohidratlarla zəngin olduğunu bildirib. İndi hər gün banan yeyərkən yalnız meyvəsini deyil, onun faydalı hissələrini də istehlak etmək daha sağlam ola bilər.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor: Nazìm SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Emìl SALAMOĞLU

"Yenì Müsavat"ın kompüter mərkəzində yığılıb, səhìfələnìb, "Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar gerì qaytarılmır. Müəllìflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 1.500